## PREZİDENT İLHAM ƏLİYEV NİDERLAND-AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN SƏDRİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Niderland Krallığı Senatının sabiq sədri, Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti, Niderland-Azərbaycan Dostluq Qrupunun sədri Rene Van der Lindeni qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikası ilə Niderland Krallığı arasında əlaqələrin inkişafından məmnunluq bildirilib, Rene Van der Lindenin...



Bax səh. 2

## PREZİDENT İLHAM ƏLİYEV ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanı qəbul edib. AZƏRTAC xəbər verir ki, Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya Bakıda keçirilən Ümumdünya Gömrük Təşkilatının İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfransı və Sərgisinin yüksək səviyyədə təşkil olunmasına görə dövlətimizin başçısına...



Bax səh. 2




Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 13 iyun 2019-cu il, cümə axşamı / № 105 (5480). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev əsaslı şəkildə təmir və bərpa olunan “Yanardağ” qoruğunun açılışında iştirak edib





## Prezidentin iş günü

Prezident İlham Əliyev Astara rayonunun Pensərçay çayında sahilbərkitmə işləri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

◆ ❖ ◆

Prezident İlham Əliyev Ümumdünya Gömrük Təşkilatının İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfrans və Sərgisinin iştirakçılarını təbrik edib. Təbrikdə deyilir: **“Hörmətli konfrans və sərgi iştirakçıları!**

**Sizi ölkəmizin paytaxtı Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar üzrə 2019-cu il Konfrans və Sərgisinin açılışı münasibətilə salamlayır, Konfrans və Sərginin işinə uğurlar arzulayıram.**

**Belə mötəbər tədbirin Bakı şəhərində keçirilməsini çox yüksək qiymətləndiririk.**

**Öz əlverişli coğrafi yerləşməsinə görə Asiya və Avropa qitələri arasında körpü rolunu oynayan ölkəmiz Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərində önəmli yer tutur. Azərbaycan mövcud nəqliyyat potensialını və tranzit imkanlarını artırmaqda daim maraqlıdır və bu sahədə irimiqyaslı infrastruktur layihələri həyata keçirərək böyük sərmayələr qoyur.**

**Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə daim böyük önəm verilmiş, informasiya cəmiyyətinin formalaşması və inkişafı məqsədilə müvafiq milli strategiyalar qəbul edilmişdir.**

**Cəmiyyətimiz üçün vacib olan elektron xidmətlərin təşkili, “elektron hökumət” üzrə genişmiqyaslı layihələrin həyata keçirilməsi, dövlət idarəçiliyində səmərəliliyin, şəffaflığın və operativliyin artırılmasını təmin edir.**

**Bu qlobal çağırışlar şəraitində, Azərbaycanın gömrük xidmətində də ciddi işlər aparılır. Gömrük işi sahəsində rəqəmsal gömrük inzibatçılığının inkişaf etdirilməsi, biznes proseslərinin, gömrük nəzarətinin təşkilində, gömrük prosedurlarının sadələşdirilməsi və şəffaflığının artırılması istiqamətində ciddi layihələr həyata keçirilir və gömrük sahəsində müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqinə və istifadəsinə xüsusi önəm verilir.**

**Ümumdünya Gömrük Təşkilatının hər il keçirdiyi bu tədbirdə dünyada tətbiq olunan qabaqcıl yeniliklərin nümayiş etdirilməsi beynəlxalq əməkdaşlığın zəruriliyini bir daha təsdiq edir.**

**Ümumdünya Gömrük Təşkilatının “SMART sərhədlər üçün yeni texnologiyalar, Ticarət, Səyahət və Daşımalar üçün yeni imkanlar” mövzusunda Konfrans və Sərgisinin ölkəmizdə keçirilməsini alqışlayır, konfransın yekunları üzrə səmərəli nəticələrin əldə ediləcəyini, aparılacaq müzakirələrin və keçiriləcək görüşlərin qarşılıqlı əməkdaşlıq əlaqələrinin dərinləşməsinə və bu sahədə yeni təşəbbüslərin meydana çıxmasına mühüm töhfə verəcəyinə ümid edirəm”.**



## BAKIDA ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATININ İNFORMASİYA TEXNOLOGİYALARI VƏ TEXNOLOJİ İNNOVASİYALAR KONFRANS VƏ SƏRGİSİ İŞƏ BAŞLAYIB

İyunun 12-də Bakıda, Heydər Əliyev Mərkəzində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfrans və...

Bax səh. 3

## NOVRUZ MƏMMƏDOV: AZƏRBAYCAN ÇOX GÜCLÜ İSLAHATLAR DÖVRÜNÜ YAŞAYIR

Azərbaycan çox güclü islahatlar dövrünü yaşayır.

AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə müsahibəsində Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov deyib.

Baş Nazir bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışlarında həyata keçirilən bütün islahatlar və gələcəkdə görüləcək işlər barədə məlumat verib, bütün ictimaiyyət bu barədə bilir: **“Bu gün ölkəmizin davamlı inkişafını təmin etmək üçün çox vacib addımlar atılır. Atılan addımlar və bu sahədə əldə edilən nailiyyətlər göz qabağındadır. Bu gələcək dövrlərdə də belə davam edəcək”.**

Novruz Məmmədov qeyd edib ki, Azərbaycanın ev sahibliyi etdiyi bugünkü mötəbər tədbirdə dünyanın bir çox ölkələrinin gömrük xidmətləri öz təcrübələrini bölüşür, konfransın işi informasiya texnologiyaları sahəsinin inkişafına təkan verir. Gömrük sahəsində görülən işlər ölkənin dayanıqlı inkişafı üçün əhəmiyyət kəsb edir. Dövlət Gömrük Komitəsi informasiya sahəsində böyük nailiyyətlər qazanıb və bu istiqamətdə fəaliyyətini davam etdirəcək.



## ƏLİ ƏHMƏDOV: HEYDƏR ƏLİYEV XALQIMIZI ACI TALE YAŞAMAQDAN XİLAS ETDİ

“AXC-“Müsavat” cütlüyünün cəmi 13 ay davam edən hakimiyyəti Azərbaycanı dövlət müstəqilliyini itirmək, ölkəni bölünmək, xalqı isə müsibətlər yaşamaq taleyi ilə üzbəüz qoydu. Ölkə xaos, anarxiya, dərəbəylik, özbaşınalıq girdabında boğulurdu...

Bax səh. 4

### Azərbaycan-Almaniya parlamentlərarası əlaqələri müzakirə olunub

İyunun 12-də Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Almaniya Bundestaqının vitse-prezidenti Tomas Oppermannın...



Bax səh. 3

### Bakıda regional təhlükəsizlik və əməkdaşlıq üzrə parlament konfransı keçirilib

İyunun 12-də Bakıda regional təhlükəsizlik və əməkdaşlıq üzrə parlament konfransı və Dialoq və Əməkdaşlıq üzrə Bakı Parlament Platformasının...



Bax səh. 3

### Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib

İyunun 12-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin iclası keçirilib. İclasda Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin rayon və şəhər təşkilatlarının...



Bax səh. 4

### Qəbələdə Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə nazirlərinin üçtərəfli görüşü keçirilib

İyunun 12-də Qəbələ şəhərindəki Heydər Əliyev Konqres Mərkəzində Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov...



Bax səh. 4

# Prezident İlham Əliyev Niderland-Azərbaycan Dostluq Qrupunun sədrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Niderland Krallığı Senatının sabiq sədri, Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti, Niderland-Azərbaycan Dostluq Qrupunun sədri Rene Van der Lindeni qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikası ilə Niderland Krallığı arasında əlaqələrin inkişafından məmnunluq bildirilib, Rene Van der Lindenin əməkdaşlığımızın genişləndirilməsi işinə verdiyi töhfə yüksək qiymətləndirilib.

Söhbət zamanı Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən nəqliyyat sahəsində Niderland şirkətlərinin iştirakının perspektivləri ətrafında fikir mübadiləsi aparılıb, gələcək əməkdaşlıq məsələlərindən danışılıb.

# Prezident İlham Əliyev Almaniya Bundestaqının vitse-prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Almaniya Bundestaqının vitse-prezidenti Tomas Oppermannın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Almaniya Bundestaqının vitse-prezidenti Tomas Oppermann paytaxtımızda gördüyü dinamik inkişaf proseslərinin nümayəndə heyəti üzvlərinə dərin təəssürat bağışladığını bildirib. Qonaq Bakıda keçirilən Regional Təhlükəsizlik və Əməkdaşlıq üzrə Parlament Konfransı və Dialoq və Əməkdaşlıq üzrə Bakı Parlament Platformasının təsis konfransına toxunaraq bu tədbirin parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsi, parlament diplomatiyasının gücləndirilməsi baxımından önəmini qeyd edib.

Dövlətimizin başçısı Bakıda keçirilən Regional Təhlükəsizlik və Əməkdaşlıq üzrə Parlament Konfransının və Dialoq və Əməkdaşlıq üzrə Bakı Parlament Platformasının təsis konfransının beynəlxalq əlaqələrin gücləndirilməsində rolunu vurğulayaraq, bu tədbirin fikir mübadiləsinin aparılması, parlamentlərarası əməkdaşlığın genişləndirilməsi işinə töhfə verdiyini bildirib.

Görüşdə Azərbaycan-Almaniya ikitərəfli münasibətləri, ölkəmizdə gedən iqtisadi inkişaf, o cümlədən kənd təsərrüfatı, turizm, informasiya texnologiyaları və digər sahələrdə mövcud əməkdaşlıq imkanları müzakirə edilib.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Prezident İlham Əliyev Ümumdünya Gömrük Təşkilatının Baş katibini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya Bakıda keçirilən Ümumdünya Gömrük Təşkilatının İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfransı və Sərgisinin yüksək səviyyədə təşkil olunmasına görə dövlətimizin başçısına minnətdarlığını bildirib və 50-dən artıq ölkənin, eləcə də özəl və ictimai sektorun nümayəndələrinin burada bir araya gəlməsini tədbirlərin önəminin göstəricisi kimi dəyərləndirib. Qonaq Bakının mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrildiyini vurğulayaraq, ölkəmizdə göstərilən qonaqpərvərliyi yüksək qiymətləndirib. Kunio Mikuriya, eyni zamanda, Azərbaycanın Ümumdünya Gömrük Təşkilatının Gömrük Əməkdaşlıq Şurasının sədr müavini, Avropa regionu üzrə rəhbər seçilməsi münasibətilə təbriklərini çatdırıb və qeyd edib ki, Azərbaycan bu sahədə təkcə gələcəkdə Avropada deyil, daha geniş məkanda mühüm rol oynaya bilər. O, ölkəmizin informasiya texnologiyaları sahəsində uğurlu beynəlxalq əməkdaşlıq həyata keçirdiyini qeyd edib.

Xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Bakıda keçirilən Ümumdünya Gömrük Təşkilatının İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfransı və Sərgisinin önəminə toxunaraq, paytaxtımızda mühüm beynəlxalq tədbirlərin keçirilməsinin artıq ənənə xarakteri daşıdığını qeyd edib və bunun ölkəmizin inkişafına öz töhfəsini verdiyini bildirib. Prezident İlham Əliyev Azərbaycanda informasiya texnologiyaları sahəsinin sürətlə inkişaf etdiyini, buraya böyük investisiyaların qoyulduğunu və bu sahənin geniş potensiala malik olduğunu vurğulayıb.

Görüşdə ölkəmizin Ümumdünya Gömrük Təşkilatı ilə uğurlu əməkdaşlıq həyata keçirdiyi bildirilib, əlaqələrimizin perspektivləri barədə fikir mübadiləsi aparılıb.

# Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin vitse-spikerinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Türkiyə Böyük Millət Məclisinin vitse-spikeri Süreyya Sadi Bilgiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirilib, parlamentlərarası əməkdaşlığın əlaqələrimizin möhkəmlənməsi işinə töhfə verdiyi vurğulanıb.

Söhbət zamanı ölkələrimizin həyata keçirdiyi birgə qlobal enerji və nəqliyyat layihələrinin önəmi vurğulanıb, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ilə bağlı məsələlər müzakirə edilib, ikitərəfli münasibətlərimizin bundan sonra da möhkəmlənəcəyinə və inkişaf edəcəyinə əminlik bildirilib.

Görüşdə Bakıda keçirilən Regional Təhlükəsizlik və Əməkdaşlıq üzrə Parlament Konfransı və Dialoq və Əməkdaşlıq üzrə Bakı Parlament Platformasının təsis konfransının beynəlxalq parlamentlərarası əməkdaşlığın genişləndirilməsi baxımından önəmi qeyd olunub.

# Prezident İlham Əliyev əsaslı şəkildə təmir və bərpa olunan “Yanardağ” qoruğunun açılışında iştirak edib







İyunun 12-də əsaslı şəkildə təmir və bərpa olunan “Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Xatırladaq ki, 2017-ci il dekabrın 29-da Prezident İlham Əliyev “Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunda olmuşdu. Dövlətimizin başçısı o zaman buradakı çatışmazlıqları və qeyri-məqbul şəraitin olduğunu qeyd edərək, bunun ölkəmizin ümumi inkişaf səviyyəsinə uyğun gəlmədiyini bildirmişdi. Prezident İlham Əliyev oradaca qoruqdakı şəraitin qısa müddət ərzində müasir səviyyəyə çatdırılması barədə aidiyyəti dövlət qurumlarına ciddi tapşırıq vermişdi.

Dövlətimizin başçısı qoruğun rəmzi açılışını bildirən lenti kəsib.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya görülən işlər barədə məlumat verib.

Bildirilib ki, qoruq yeni konsepsiyaya uyğun olaraq bərpa edilib. Abşeron rayonunun Məmmədli kəndində yerləşən Yanardağ abidəsinin ərazisi Prezident İlham Əliyevin 2007-ci ildə imzaladığı Sərəncamla Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu elan edilib. Qoruğun fəaliyyəti Nazirlər Kabinetinin 2018-ci il 7 iyun tarixli müvafiq qərarına əsasən Dövlət Turizm Agentliyi tərəfindən tənzimlənir. Dövlətimizin başçısının ötən ilin iyulunda imzaladığı Sərəncama əsasən “Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun müasir standartlara uyğunlaşdırılması və ərazisində yeni turizm infrastrukturunun yaradılması məqsədilə 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan vəsait ayrılıb. Qoruğun bərpası Dövlət Turizm Agentliyinə həvalə olunub.








Aparılan yenidənqurma işləri çərçivəsində ümumi sahəsi 64,55 hektar olan qoruğun ərazisində 3 tematik zonadan ibarət muzey, açıq hava konsertləri üçün nəzərdə tutulan 500 nəfərlik amfiteatr, sənətkar emalatxanaları və mağazalar, yerli sənətkarlar tərəfindən keramika, şüşə, taxta və parça kimi təbii materiallardan hazırlanan suvenirlərin satışı məntəqəsi, parkinq turistlərin ixtiyarına verilib. 2007-ci ildən qoruq statusuna malik olan Yanardağda, həmçinin ərazidə tapılan, yerli əhali tərəfindən istifadə edilmiş qədim daşlar və sənətkarlıq nümunələrinin, qaval daşının nümayiş etdirildiyi açıq hava muzeyi yaradılıb. Bundan əlavə, qoruq ərazisində yerli gənc rəssamların əsərlərinin nümayiş olunduğu kafe, əyləncə zonası, uşaqlar üçün oyun meydançası fəaliyyət göstərəcək. Fiziki məhdudiyyətli şəxslərin Yanardağ alovunun ətrafına enməsi üçün xüsusi yol çəkilib. Bütövlükdə qoruq ərazisi abadlaşdırılaraq müxtəlif ağaclar əkilib.

Qoruğun tərkibində Yanardağ - əbədiyaşar alov təbii abidəsi ilə yanaşı, digər maddi-mədəni irs nümunələri və təbiət abidələri də var. Bu abidələrə “Qurd yuvası” adlanan ilkin ibtidai icma dövrünə aid mağaralar, çoxəsrlik tarixə malik və qədim sanduqələrlə zəngin iki qəbiristanlıq, müalicəvi kükürdlü su bulaqları, hələ də aktiv fəaliyyətdə olan Qırməki palçıq vulkanı, Əlidaşı piri, Kardaşı iri təbii qaya daşları, Qırməki vadisi, qədim kurqan aiddir.

Ölkəmizdə mövcud olan tarixi, dini, mədəni abidələrin bərpası dövlət siyasətində mühüm yerlərdən birini tutur. Prezident İlham Əliyevin diqqəti sayəsində bu cür obyektlərin təmiri, bərpası, yenidən qurulması istiqamətində çox böyük işlər görülüb. Dövlətimizin başçısının imzaladığı Sərəncama əsasən “Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun müasir standartlara uyğunlaşdırılması və ərazisində yeni turizm infrastrukturunun yaradılması da bu istiqamətdə görülən işlərin ardıcıl xarakter aldığını nümayiş etdirir. Azərbaycanda dövlət səviyyəsində bu istiqamətdə həyata keçirilən işlərə birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da sanballı töhfələr verir. Bu layihələrin icrası bir neçə mühüm amili birləşdirir. İlk növbədə, bu işlər tarixi, dini, mədəni abidələrə dövlətimiz tərəfindən nə qədər həssaslıqla yanaşıldığını göstərir, Azərbaycanın qədim, tarixi diyar olduğunu bir daha sübut edir. Bundan başqa, turistləri cəlb etmək baxımından da “Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun müasir standartlara uyğunlaşdırılması mühüm rol oynayır.

“Yanardağ” qoruğunda görülən işlərlə tanışlıqdan sonra xatirə şəkli çəkdirilib.

# Bakıda Ümumdünya Gömrük Təşkilatının İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfrans və Sərgisi işə başlayıb











İyunun 12-də Bakıda, Heydər Əliyev Mərkəzində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfrans və Sərgisi işə başlayıb.

AZƏRTAC xəbər verir ki, konfransın açılış mərasimində Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov Prezident İlham Əliyevin tədbir iştirakçılarına ünvanladığı məktubu oxuyub və çıxış edib.





Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya və tədbir iştirakçılarını salamlayan Novruz Məmmədov deyib: **"Bugünkü tədbirdə siz - gömrük orqanlarının, sərhəd idarəçiliyi üzrə qurumların, işgüzar dairələrin nümayəndələri birlikdə gömrük işinin müxtəlif mövzularına həsr olunan aktual strateji yanaşmalarla bağlı müzakirələr aparacaqsınız. Konfransda sərhəd idarəçiliyinin, beynəlxalq ticarətin təhlükəsizliyinin və dayanıqlılığının təmin edilməsi kimi vacib məsələlər müzakirə olunacaq".**

Baş Nazir qeyd edib ki, Azərbaycan beynəlxalq təşkilatlarla, o cümlədən Ümumdünya Gömrük Təşkilatı ilə fəal əməkdaşlıq edir. Belə ki, Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin ölkəmizin paytaxtında yerləşməsi, eləcə də Azərbaycanın Ümumdünya Gömrük Təşkilatının Avropa Regionu üzrə sədr müavini vəzifəsinə seçilməsi əməkdaşlığımızın yüksək səviyyəsini göstərir.

**"Ümumdünya Gömrük Təşkilatının bu mötəbər tədbirinin Bakı şəhərində keçirilməsi təqdirəlayiq haldır. Bakı son illər mədəniyyətlər, sivilizasiyalararası dialoq, idman, enerji, nəqliyyat və digər sahələrdə mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edir. Bu konfransın da Bakıda keçirilməsi ölkəmizin mötəbər tədbirlərə ev sahibliyi etməsi sahəsində qazandığı etimadın göstəricisidir",** - deyə Novruz Məmmədov bildirib.

Baş Nazir deyib ki, Azərbaycan əlverişli coğrafi mövqedə, beynəlxalq nəqliyyat dəhlizlərinin və informasiya magistrallarının kəsişdiyi məkanda yerləşir. Son illər respublikamız bu sahədə öz rəqabətqabiliyyətliliyini yüksəltmək məqsədilə böyük sərmayələr qoyur, regionda və ölkə daxilində irimiqyaslı infrastruktur layihələri həyata keçirir. 2008-ci ildən etibarən Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması ilə bağlı işlərə başlanılıb. Artıq Azərbaycan müxtəlif təyinatlı 3 peykini orbitə çıxarıb və dünyanın kosmik ölkələr klubunun üzvüdür. 2013-cü ilin Azərbaycanda "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilməsi bu sahənin inkişafına ən yüksək səviyyədə göstərilən diqqətin əyani təsdiqidir.

**"Dövlət orqanlarında, o cümlədən gömrük sahəsində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə idarəçiliyin təkmilləşdirilməsi Azərbaycan üçün əsas vəzifələrdən biridir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət proqramları və islahatlar nəticəsində ölkəmizin ümumdünya elektron məkanına sürətli inteqrasiyası təmin edilib, elektron hökumətin, rəqəmsal iqtisadiyyatın, elektron kommersiya və data-mərkəzlərinin, texnoloji parkların, biznes inkubatorların yaradılması, informasiya təhlükəsizliyinin təmini istiqamətində mühüm addımlar atılıb. Hörmətli qonaqlar, sizi Azərbaycanda bir daha salamlayır, konfrans və sərginin işinə uğurlar arzulayıram",** - deyə Novruz Məmmədov vurğulayıb.

Dövlət Gömrük Komitəsinin (DGK) sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev çıxışında tədbirin önəmini diqqətə çatdıraraq vurğulayıb ki, Azərbaycanda əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən mütərəqqi siyasət nəticəsində bu gün bütün sahələrdə olduğu kimi, gömrük işinin müasir idarəçilik prinsipləri əsasında təşkili istiqamətində də mühüm nailiyyətlər əldə olunub.

Səfər Mehdiyev qeyd edib ki, qlobal müstəvidə gömrük işi sahəsində tətbiq edilən informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə bağlı qabaqcıl təcrübələrin öyrənilməsi üçün beynəlxalq əməkdaşlığın rolu vacibdir və Azərbaycan Gömrük Xidmətinin ÜGT ilə əməkdaşlığını bu mənada nümunəvi saymaq olar. DGK sədri vurğulayıb ki, bu gün Heydər Əliyev Mərkəzində ÜGT-nin ən böyük tədbirinin keçirilməsi heç də təsadüfi deyil. İlk dəfə olaraq ÜGT-nin həm özəl, həm də dövlət sektoru üçün nəzərdə tutulan iki tədbiri - İnformasiya Texnologiyaları Sərgisi, Texnologiyalar və İnnovasiyalar Konfransı birləşdirilərək vahid tədbir çərçivəsində təşkil edilib.

Komitə sədri bildirib ki, bu yeniliyə məhz Bakıda keçirilən tədbirdə imza atılması Azərbaycanın mötəbər tədbirlərə ev sahibliyi etməsi işində qazandığı xüsusi rəğbət və etimadın göstəricisidir. Səfər Mehdiyev onu da qeyd edib ki, "SMART sərhədlər üçün yeni texnologiyalar, Ticarət, Səyahət və Daşımalar üçün yeni imkanlar" mövzusunda keçirilən konfransda beynəlxalq ticarətin təhlükəsizliyini və dayanıqlığını təmin etmək məqsədilə gömrük işi sahəsində blokçeyn texnologiyasından, süni intellektdən istifadə kimi məsələlər ətrafında maraqlı müzakirələr aparılacaq və tətbiq edilə bilən ən müasir texnoloji həllər barədə təqdimatlar keçiriləcək.

Daha sonra qeyd edilib ki, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsində böyük uğurlar əldə edib. Azərbaycan gömrüyü tərəfindən tətbiq olunan elektron xidmətlər ölkədə ümumilikdə ən çox istifadə edilən elektron xidmətlər sırasındadır. Bu gün gömrük rəsmiləşdirilməsi proseslərinin tam avtomatlaşdırıldığını, gömrük bəyannamələrinin elektron formada təqdim edildiyini, gömrük ödənişlərinin həyata keçirilməsi, gömrük orqanlarına müraciətlərin izlənməsi kimi xüsusi sosial əhəmiyyət kəsb edən xidmətlərin tam kağızsız texnologiyalar əsasında qurulduğunu deyən komitə sədri, fürsətdən istifadə edərək tədbirin iştirakçı ölkələrini şəffaf statistika aparmağa və bu sahədə birgə layihələr həyata keçirməyə dəvət edib.

Öz növbəsində, Koreya Gömrük Xidməti İnformasiya və Beynəlxalq Məsələlər İdarəsinin Baş direktoru Taeil Kang çıxış edərək tədbir iştirakçılarını salamlayıb və ÜGT-nin İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfrans və Sərgisinə ev sahibliyi etdiyi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə təşəkkürünü bildirib.

Baş direktor bu tədbirin qarşıda duran vəzifələri bir daha müəyyənləşdirməkdə və problemlərdən çıxış yollarını aramaqda kömək edəcəyinə əmin olduğunu bildirib, informasiya texnologiyaları sahəsindəki qabaqcıl təcrübələrdən danışıb.

ÜGT-nin Baş katibi Kunio Mikuriya isə bildirib ki, bugünkü konfrans aparıcı texnologiyaların və yeniliklərin mübadiləsi sahəsində yüksək səviyyədə təşkil edilib, tədbirdə ÜGT-nin qlobal texnologiyalar üzrə peşəkar ekspertlər qrupu iştirak edir. Əldə olunan nailiyyətləri bu tədbir çərçivəsində daha da inkişaf etdirmək niyyətində olduqlarını deyən Baş katib, tədbirdə daha çox ticarət, səyahət və nəqliyyat üçün yeni texnologiyalar mövzusunun seçildiyini diqqətə çatdırıb.

Kunio Mikuriya qeyd edib ki, bu gün elektron kommersiya və elektron ticarətin inkişafı müşahidə olunur və bu, bizim yaşam tərzimizdir. Süni intellekt, blokçeyn, əşyalar interneti və sair sərhəd-keçid məntəqələrində idarə edilməsi iqtisadi inkişafa səbəb ola bilər. Baş katib onu da bildirdi ki, biz ölkələrin təcrübə və fikir mübadiləsindən yararlanır və konfransda müzakirələr apararaq gələcəkdə bu sahəni inkişaf etdirə bilərik.

Daha sonra tədbir iştirakçıları texnoloji yeniliklər və avadanlıqların nümayiş olunduğu sərgiyə baxıblar.

Konfrans işini sessiyalarla davam etdirib. Sessiyalarda texnologiyaya əsaslanan qabaqcıl ticarət üzrə strategiyaların yenidən qurulması, gələcəyin yaşıl nəqliyyat və logistikasına sərhəd idarəçiliyinin münasibəti, maneəsiz sərhəd üçün smart hava limanları, daha təhlükəsiz və dayanıqlı ticarət üçün innovativ həllər, gələcəyə yönəlmiş nəqliyyat sahəsi ilə bağlı mövzular müzakirə olunub.

ÜGT-nin İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfrans və Sərgisi iyunun 14-dək davam edəcək.

# Azərbaycan-Almaniya parlamentlərarası əlaqələri müzakirə olunub



İyunun 12-də Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Almaniya Bundestaqının vitse-prezidenti Tomas Oppermannın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov Azərbaycan-Almaniya əlaqələrinin qədim tarixə malik olduğunu deyib. Bildirib ki, 2016-cı ildə Azərbaycan Prezidenti İlham Əliyev "Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi haqqında" Sərəncam imzalayıb. Bu gün Almaniya-Azərbaycan əlaqələri çox yüksək səviyyədədir. Dövlət və hökumət başçılarının qarşılıqlı səfərləri bu baxımdan ikitərəfli münasibətlərin inkişafında əhəmiyyətli rol oynayır. Ölkələrimizin parlamentləri arasında da əlaqələr inkişaf edir. Bu günədək Azərbaycan ilə Almaniya arasında 77 hüquqi sənəd imzalanıb, 14 sənəd isə baxılmaqdadır.

Sədr qeyd edib ki, iqtisadi sahədə də münasibətlərimiz yüksək səviyyədədir. Ölkələrimiz arasında 2018-ci ildə ticarət dövriyyəsinin həcmi təqribən 1,9 milyard ABŞ dolları olub. Bu rəqəm ötən dövrün göstəricisindən təxminən 40 faiz çoxdur. Cari ilin birinci rübündə ticarət dövriyyəsinin həcmi 590 milyon ABŞ dolları təşkil edib. Təsadüfi deyil ki, Almaniyanın Cənubi Qafqaz regionu ölkələri ilə ümumi ticarətində ötən il Azərbaycanın payı 70 faizdən çox olub. Həmin ilin statistik göstəricilərinə görə, Almaniyanın xam neft idxalında Azərbaycan 8-ci yerdə qərarlaşıb. 2004-2017-ci illərdə ölkəmizdə 201 alman şirkəti qeydiyyata alınıb.

**"Müstəqil Azərbaycan Avropa İttifaqı və onun önəmli üzvü olan Almaniya ilə əlaqələrin daha da dərinləşməsində maraqlıdır. Bu gün Azərbaycan Avropanın neft və qaz təchizatında əhəmiyyətli rol oynayır. Azərbaycanın təşəbbüsü və yaxından iştirakı ilə reallaşmış neft və qaz kəmərləri bunun əyani sübutudur. Ölkəmiz həm də Avropanı Asiya ilə daha da yaxınlaşdıracaq yeni Dəmir İpək yolu ideyasının reallaşmasına öz töhfəsini verib",** - deyə parlament Sədri vurğulayıb.

Oqtay Əsədov bildirib ki, dövlətlərarası münasibətlərdə parlament diplomatiyasının önəmi gündən-günə artmaqdadır. Hər iki ölkənin parlamentlərində dostluq qrupları fəaliyyət göstərir. Almaniyanın hökumət və parlament üzvləri dəfələrlə Milli Məclisin qonağı olublar. Biz nümayəndə heyətlərinin qarşılıqlı səfərlərini əhəmiyyətli hesab edirik.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən söz açan Oqtay Əsədov bildirib ki, Azərbaycan münaqişənin tezliklə beynəlxalq hüquq normaları çərçivəsində, ölkələrin ərazi bütövlüyü prinsipi əsasında həllinin tərəfdarıdır.

Almaniya Bundestaqının vitse-prezidenti Tomas Oppermann Bakıya ilk dəfə səfər etdiyini və burada gördüklərindən məmnun qaldığını bildirib. Qeyd edib ki, Azərbaycanda dini tolerantlıq, siyasi sabitlik mövcuddur. Azərbaycan və Almaniya arasında ortaq dəyərlər və müxtəlif məsələlər üzrə fikir birliyi var. Tərəfləri düşündürən bir sıra məsələlər üzrə dialoqun aparılması və parlament diplomatiyasının imkanlarından istifadə olunması, münaqişələrin sülh yolu ilə həll edilməsi önəmli məsələlərdəndir. Bu baxımdan Milli Məclisin təşəbbüsü ilə Bakıda keçirilən regional təhlükəsizlik və əməkdaşlıq üzrə parlament konfransı və Dialoq və Əməkdaşlıq üzrə Bakı Parlament Platformasının təsis konfransının əhəmiyyəti böyükdür.

Söhbət zamanı bildirilib ki, Almaniya Cənubi Qafqaz bölgəsində özünəməxsus yer tutan Azərbaycanla əlaqələrin inkişafına böyük diqqət yetirir və gələcəkdə münasibətləri daha da dərinləşdirmək niyyətindədir.

Görüşdə Almaniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun başçısı Xanlar Fətiyev, ATƏT PA-nın vitse-prezidenti Azay Quliyev, ölkəmizin Almaniyadakı səfiri Ramin Həsənov və digər rəsmi şəxslər iştirak ediblər.

# Bakıda regional təhlükəsizlik və əməkdaşlıq üzrə parlament konfransı keçirilib



İyunun 12-də Bakıda regional təhlükəsizlik və əməkdaşlıq üzrə parlament konfransı və Dialoq və Əməkdaşlıq üzrə Bakı Parlament Platformasının təsis konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir Azərbaycan Respublikası Milli Məclisinin təşkilatçılığı ilə reallaşıb.

Konfransın keçirilməsində məqsəd regional təhlükəsizliyə təhdid yaradan amillərin qarşısının alınması yollarını, qarşılıqlı inam və dialoqun gücləndirilməsi, iştirakçı ölkələr arasında əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə yüksəldilməsi, nəqliyyat və enerji sahələrində əlaqələrin inkişaf etdirilməsi məsələlərini müzakirə etmək, həmçinin Dialoq və Əməkdaşlıq üzrə Bakı Parlament Platformasını yaratmaqdır.




Tədbirdə çıxış edən ATƏT Parlament Assambleyasının vitse-prezidenti, Milli Məclisin deputatı Azay Quliyev bildirib ki, mövcud çağırışların birgə həlli, regionda sülh və təhlükəsizliyin bərqərar olması naminə beynəlxalq təşkilatların, regional və qlobal güclərin əməkdaşlıq və dialoq imkanlarının genişləndirilməsinə, bu istiqamətdə yeni yanaşmalara və təşəbbüslərə ciddi ehtiyac var. Bu baxımdan ATƏT PA-nın iştirakı ilə Regional Təhlükəsizlik və Əməkdaşlıq üzrə Parlament Konfransının Bakıda keçirilməsinin, Almaniya, Türkiyə və Azərbaycandan olan parlamentarilərin ilk dəfə olaraq belə formatda bir araya gələrək regionu narahat edən məsələləri müzakirə etməyə başlamasının çox böyük əhəmiyyəti və siyasi perspektivi var.

ATƏT Parlament Assambleyasının prezidenti Georgi Tsereteli çıxış edərək konfransın əhəmiyyətindən danışıb. O bildirib ki, ATƏT üzv dövlətlər arasında əlaqələrin inkişafını təşviq edir. Münaqişələrin həlli, problemlərin aradan qaldırılması üçün dialoq ən optimal yoldur. Georgi Tsereteli inandığını bildirib ki, bu gün aparılacaq müzakirələr qarşılıqlı dialoqun daha da inkişaf etdirilməsi işinə öz töhfəsini verəcək.

Milli Məclisin sədr müavini Bahar Muradova həssas məqamlarla zəngin müasir dövrdə Azərbaycanın belə bir tədbirə ev sahibliyi etməsinin qürurverici olduğunu deyib. Bahar Muradova belə bir platformanın yaradılmasının beynəlxalq hüququn prinsiplərinə tam uyğun olduğunu bildirib. Qeyd edib ki, müasir dövrdə davamlı sülh münasibətlərinin qurulmasına ciddi ehtiyac var. Bakı Parlament Platforması gələcəkdə öz ətrafında daha çox tərəfdaş toplaya və münaqişələrin həllində böyük rol oynaya bilər. Bu platformanın əsas hədəflərindən biri də əməkdaşlığı inkişaf etdirmək olacaq. Bu platforma vasitəsilə gücümüzü və səylərimizi birləşdirərək beynəlxalq miqyasda da münaqişələrin həllinə öz töhfəmizi verə bilərik.

Almaniya Bundestaqının vitse-prezidenti Tomas Oppermann da yeni platformanın regional və beynəlxalq münaqişələrin həllində mühüm rol oynayacağına inandığını bildirib. O, yeni platformanın Azərbaycanın münaqişələrin həlli işinə növbəti töhfəsi olduğunu deyib. Azərbaycan ilə Almaniya arasında sıx münasibətlərin olduğunu deyən T.Oppermann bu əlaqələrin daha da intensivləşdiyini deyib.

Türkiyə Böyük Millət Məclisinin vitse-spikeri Süreyya Sadi Bilgiç belə bir platformanın yaradılmasının bir çox baxımdan böyük əhəmiyyətə malik olduğunu deyib. O, əmin olduğunu bildirib ki, platforma çərçivəsində aparılacaq müzakirələr münaqişələrin həllinə böyük töhfə verəcək. Süreyya Sadi Bilgiç belə bir təşəbbüsün Azərbaycan tərəfindən irəli sürülməsinin Türkiyə üçün də qürurverici olduğunu deyib.

Regionda sabitliyə təhdid olan və 30 ilə yaxındır ki, davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan vitse-spiker Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu bir daha xatırladıb.

Tədbir çərçivəsində "Siyasi dialoqun, regional əməkdaşlığın və təhlükəsizliyin möhkəmləndirilməsinə yönəlmiş mexanizmlərin genişləndirilməsi üçün yeni imkanlar" mövzusunda panel iclas da keçirilib.

Panel müzakirələrdə çıxış edən Milli Məclisin deputatı Sahibə Qafarova Azərbaycanın dünyada sülh və təhlükəsizlik təşəbbüslərinə daim dəstək verdiyini deyib. Qeyd edib ki, Azərbaycanın işğalçı Ermənistan dövləti istisna olmaqla bütün region ölkələri ilə sıx əlaqələri var. Qonşu dövlətlərlə reallaşdırılan böyük iqtisadi layihələr bu münasibətlərin möhkəmləndirilməsi baxımından əhəmiyyətli rol oynayır.

Almaniya Bundestaqının deputatı Edqar Franke Azərbaycandakı iqtisadi inkişafın və sabitliyin yüksək olduğunu deyib. Azərbaycan insan hüquqları sahəsində böyük uğurlara imza atıb. Azərbaycan Almaniyanın ən vacib tərəfdaşlarındandır. İnanırıq ki, ölkələrimiz arasında əlaqələr bundan sonra qarşılıqlı etimad xətti üzrə inkişaf edəcək.

Türkiyə Böyük Millət Məclisinin deputatı Mustafa Hilmi Dülger deyib ki, insanların rifahının yaxşılaşdırılması beynəlxalq əməkdaşlığı gücləndirmədən mümkün deyil. Regional səviyyədə sağlam münasibətlər olmadan iqtisadi əlaqələr çox çətindir. Bu baxımdan bu gün yaradılan platforma böyük əhəmiyyətə malikdir.

Sonda konfrans iştirakçıları birgə foto çəkdiriblər.

# Əli Əhmədov: Heydər Əliyev xalqımızı acı tale yaşamaqdan xilas etdi



**"AXC-"Müsavat" cütlüyünün cəmi 13 ay davam edən hakimiyyəti Azərbaycanı dövlət müstəqilliyini itirmək, ölkəni bölünmək, xalqı isə müsibətlər yaşamaq taleyi ilə üzbəüz qoydu. Ölkə xaos, anarxiya, dərəbəylik, özbaşınalıq girdabında boğulurdu. Sözün həqiqi mənasında, yaşamaq uğrunda mübarizə gedirdi. Çörək növbələri 1993-cü ildə Azərbaycanda həyatın ən acı mənzərələrindən birinə çevrilmişdi. İnflyasiya 1000 faizlə ölçülürdü. Milli valyuta, sözün əsl mənasında, dəyərsiz kağız parçası olmuşdu. İqtisadiyyat bütünlüklə çökmüşdü. Vaxtilə minlərlə insanın çalışdığı fabrik və zavodlar sökülüb dəzgahları metal kimi dəyər-dəyməzinə xaricə satılırdı. İş o yerə çatmışdı ki, dəmir yol relsləri, tramvay xətləri, vaxtilə Azərbaycana böyük valyutalar gətirən şərab çənləri daşınıb xaricdə "əridilirdi". Digər heç bir sahədə bacarıq göstərə bilməyən o zamankı hakimiyyətə cəmi bir il kifayət etdi ki, ölkəni bütünlüklə talan etsin".** Bu fikirlər Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədovun rəsmi facebook səhifəsində yayımladığı "Heydər Əliyev xalqımızı acı tale yaşamaqdan xilas etdi" sərlövhəli məqaləsində yer almışdır.

Əli Əhmədov Milli Qurtuluş Günü münasibəti ilə qələmə aldığı məqalədə 1992-1993-cü illərin acı reallıqlarını təhlil edərək qeyd edir: **"Ermənistanla müharibə vəziyyətində olan ölkədə nizami ordu yaradılmamışdı. Ayrı-ayrı qruplara, maraqlara, hətta siyasi partiyalara xidmət edən silahlı dəstələr ordunu əvəz edir, hərbi vəzifələrdən daha çox siyasi vəzifələrə qulluq göstərirdi. Silahlı qüvvələr hakimiyyət savaşına cəlb olunmuşdu. Ermənilər isə bundan istifadə edib Azərbaycanın torpaqlarını zəbt etməkdə davam edirdilər. Dövlətin və mərkəzi hakimiyyətin ifrat zəifliyindən istifadə edən məkrli qüvvələr separatçı hərəkata rəvac vermişdilər. Cənubda Talış-Muğan respublikası elan edilmiş, şimalda "Sadval" hərəkatı baş qaldırmışdı. Azərbaycanın parçalanması, demək olar ki, artıq baş vermişdi. AXC-"Müsavat" hakimiyyəti bütünlükdə iflasa uğrayıb taqətini itirmişdi. Azərbaycanı acı tale gözləyirdi. Dövləti idarə edən siyasətçilərin görməli və qiymətləndirməli olduğu təhlükələri onlar deyil, müdrik Azərbaycan xalqı görür və qiymətləndirirdi. Xalq hökmünü vermişdi: Hakimiyyət dəyişməli, siyasətdə naşıları siyasətin nəhəngi əvəz etməlidir. Beləliklə, xalq Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Azərbaycanın fəlakətdən, xalqın müsibətdən qurtulması naminə".**

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışını Azərbaycanın müasir tarixinin yeni mərhələsi kimi dəyərləndirən Baş nazirin müavini daha sonra bildirir: **"Heydər Əliyevin qayıdışı ilə Azərbaycanın müasir tarixinin yeni mərhələsi başladı. Xaos, anarxiya aradan qaldırıldı, sabitlik təmin edildi, inflyasiya və iqtisadi tənəzzül cilovlandı, islahatlar həyata keçirildi, Azərbaycana firavanlıq gətirən neft strategiyası reallaşdı, nizami ordu yaradıldı, erməni təcavüzü dayandırıldı, separatizmin kökü kəsildi, Azərbaycanın bütövlüyü qorunub saxlanıldı.**

**Çörək növbələri, 1000 faizlik inflyasiya, separatizm, AXC-"Müsavat" hakimiyyətinin digər "şedevrləri" indiki gənclərə, yəqin ki, fantaziya kimi gəlir. Ancaq bütün bunlar yaşadığımız tarixin qaranlıq bir parçasıdır. Daha dəqiq ifadə etsək, bizə yaşadılan bir tarix, bir müsibətdir. Əgər xalq vaxtında o zamankı hakimiyyəti devirməsəydi və siyasət nəhəngi Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycan başqa bir tale yaşamağa məhkum olacaqdı. Yalnız Heydər Əliyevin sayəsində, Onun müdrikliyi və 2003-cü ildən Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət sayəsində Azərbaycan güclü, qüdrətli, firavan, təhlükəsiz dövlət və ölkə kimi tanınır və qəbul olunur. Ən başlıcası isə, insanlar rahat yaşayır, gələcəyə ümidlə baxırlar. Ona görə də xalq 1993-cü ilin iyun ayında Heydər Əliyevin hakimiyyətə qayıdışını Milli Qurtuluş Günü kimi qeyd edir.**

**Azərbaycan xalqı hər il böyük coşqu ilə Milli Qurtuluş bayramını qeyd etdiyi halda, 26-27 il bundan əvvəl ölkəni dəhşətli böhrana salaraq insanlara müsibətlər yaşadanların qalıqlarının indiki hakimiyyəti və bütünlükdə reallıqlarımızı yalan-böhtan əsasında tənqid etmələri istər-istəməz acı təbəssüm yaradır. Uğursuzların özlərini qəhrəman kimi təqdim etməsi tarixin ən gülməli paradokslarındandır. Lakin tarixi o tarixi yaşamış insanlara unutdurmaq mümkün deyil.**

**Milli Qurtuluş məfkurəsi Azərbaycanın qarşısında geniş perspektivlər açmışdır. Ölkəmizin uzun illər bu yolla gedəcəyinə və daha böyük uğurlar qazanacağına dərindən inanıram.**

**Milli Qurtuluş Günü bayramınız mübarək olsun!"**

# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib



İyunun 12-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin iclası keçirilib. İclasda Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin rayon və şəhər təşkilatlarının konfransları barədə, eləcə də partiyanın İcra Katibliyi və rayon təşkilatlarının aparatında çalışan məsul işçilərin attestasiyaları barədə məlumat dinlənilib.

Qeyd edilib ki, Yeni Azərbaycan Partiyasının gəncləri cəmiyyətin fəal təbəqəsi kimi özlərini təsdiqləmişdir. Partiya sıralarında birləşmiş gənclərimiz yüksək vətəndaş mövqeyi, ictimai-siyasi proseslərdə fəallıq və yüksək vətənpərvərlik nümayiş etdirirlər. YAP gənclərinin xarakterini vurğulayarkən vətənpərvərlik, fəallıq, ictimai-siyasi proseslərdə iştirakçılıq xüsusi qeyd olunmalıdır. Eyni zamanda, Heydər Əliyev ideyalarına sədaqət, dövlətə və dövlətçiliyə bağlılıq, Prezident İlham Əliyevin siyasətini birmənalı şəkildə dəstəkləmək gənclərimizin əsas xarakterik keyfiyyətləri sırasındadır.

Nəzərə çatdırılıb ki, YAP-ın cəmiyyətdə rolunun artması fonunda partiyanın gənclərinin də rolunun artması sevindirici haldır. Partiyanın sıralarında gənclərin sayının artması isə özlüyündə YAP-ın təkcə bu günü ilə deyil, gələcəyi ilə bağlı da böyük perspektivlərə malik olduğunu ifadə edir. Getdikcə daha çox sayda Azərbaycanın fəal, vətənpərvər gəncləri öz siyasi talelərini Yeni Azərbaycan Partiyası ilə bağlayır, Prezident İlham Əliyevin siyasətinə münasibətlərini bu formada ifadə edirlər.

İclasda qeyd olunub ki, Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin rayon və şəhər təşkilatlarının konfransları yüksək səviyyədə təşkil edilib.

Konfransların ümumi mənzərəsi bir daha təsdiq edir ki, gənclər Prezident İlham Əliyevin davam etdirdiyi siyasi kursu və bu gün ölkə başçısının rəhbərliyi ilə həyata keçirilən islahatları birmənalı olaraq dəstəkləyir.

İdarə Heyətinin iclasında YAP-ın İcra Katibliyi, o cümlədən partiyanın rayon və şəhər təşkilatlarının aparat işçilərinin attestasiyasının nəticələri yüksək qiymətləndirilib.

İclasda həmçinin bir sıra cari məsələlər müzakirə edilib və müvafiq qərar qəbul edilib.

# Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, iyunun 12-də Masallı, Şəmkir, Balakən, İsmayıllı və Laçın rayonlarının sakinləri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, digər müraciətlər isə operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün nəzarətə götürülüb.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. Bütün bunlar, ilk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlib. Dövlətimizin başçısının da dediyi kimi, yürüdülən siyasətin təməlində Azərbaycan vətəndaşı, onun rifah halının yaxşılaşdırılması dayanır. Son vaxtlarda imzalanan fərman və sərəncamlar, sosial-iqtisadi sahədə aparılan islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlərin davamıdır.

Həmçinin görüşlərdə məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, etik davranış qaydalarına əməl olunmasının vacibliyi bir daha vurğulanıb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Azərbaycanın və Gürcüstanın Müdafiə nazirlikləri arasında ikitərəfli əməkdaşlıq planı imzalanıb



İyunun 12-də Qəbələ şəhərində Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Gürcüstanın Müdafiə naziri Levan İzoriya ilə görüşüb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə qonaqları salamlayan Müdafiə naziri general-polkovnik Z.Həsənov Azərbaycan-Gürcüstan hərbi əməkdaşlığının regional iqtisadi layihələrin təhlükəsizliyinin təmin edilməsi, ikitərəfli, NATO-nun keçirdiyi proqramlar çərçivəsində və digər sahələrdə aparıldığını qeyd edib və bu əməkdaşlığın fəaliyyət sahələrinin daha da genişləndirilməsinin vacibliyini vurğulayıb. Dövlətlərimiz arasında əlaqələrin inkişafında ölkə rəhbərlərinin dostluq münasibətlərinin mühüm rol oynadığını deyən general-polkovnik Z.Həsənov bu cür görüşlərin əməkdaşlığımızın genişləndirilməsi baxımından zəruriliyini xüsusi qeyd edib.



Azərbaycana növbəti dəfə səfər etməsindən məmnunluğunu bildirən Gürcüstanın Müdafiə naziri bunun ölkələrimiz arasında əməkdaşlığın yüksək səviyyəsinin bariz nümunəsi olduğunu deyib.

Sonra tərəflər regiondakı hərbi-siyasi vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparıblar.

Sonda Azərbaycanın və Gürcüstanın Müdafiə nazirlikləri arasında 2019-cu il üçün ikitərəfli əməkdaşlıq planı imzalanıb.

# Qəbələdə Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə nazirlərinin üçtərəfli görüşü keçirilib









İyunun 12-də Qəbələ şəhərindəki Heydər Əliyev Konqres Mərkəzində Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov, Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar və Gürcüstanın Müdafiə naziri Levan İzoriya arasında üçtərəfli görüş keçirilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, görüşdən öncə nazirlər Qəbələ şəhərindəki Şəhidlər xiyabanına gəlib, "Əbədi məşəl" abidəsinin önünə, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının məzarları üzərinə gül dəstələri qoyublar.

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsi də ehtiramla yad edilib, abidəsi önünə gül dəstələri düzülüb.

Görüşdə Müdafiə nazirləri regionda cərəyan edən hərbi-siyasi vəziyyət, üçtərəfli formatda hərbi əməkdaşlığın inkişaf etdirilməsi, regional layihələrin təhlükəsizliyinin təmin olunması məsələlərini müzakirə ediblər. Tərəflər, həmçinin üçtərəfli hərbi əməkdaşlıq sahəsində qarşılıqlı maraq doğuran digər aspektlər barədə ətraflı fikir mübadiləsi aparıblar.

Sonda danışıqların yekununa dair protokol imzalanıb. Sənədi Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar və Gürcüstanın Müdafiə naziri Levan İzoriya imzalayıblar.

Sonra kütləvi informasiya vasitələri nümayəndələri üçün brifinq keçirilib.

Azərbaycanın Müdafiə naziri, general-polkovnik Zakir Həsənov bildirib ki, Azərbaycan, Türkiyə və Gürcüstan digər sahələrdə olduğu kimi, müdafiə sahəsində də əməkdaşlığı inkişaf etdirirlər. Görüşdə üç qonşu, dost dövlətin Müdafiə nazirlərinin iş planına daxil olan məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Z.Həsənov üçtərəfli görüşdə Türkiyənin separatizmlə haqlı mübarizəsinin dəstəkləndiyini vurğulayaraq deyib: **"Görüşdə Gürcüstanın və Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə olundu. Hərbi, hərbi-texniki, hərbi təhsil və hərbi tibb sahəsində görülən işlər müzakirə edildi. Xüsusilə qeyd etmək istəyirəm ki, hərbi əməkdaşlıqda birgə təlimlər mühüm rol oynayır. İlbəil birgə təlimlərin sayı artır. Misal üçün, 2018-ci ildə Türkiyə ilə Azərbaycan arasında 7 təlim təşkil olunub. Bu il isə 13 təlimin keçirilməsi nəzərdə tutulur. Azərbaycanın və Türkiyənin təşkil etdiyi təlimlərə Gürcüstan da dəvət olunub".**

Türkiyə, Azərbaycan və Gürcüstan arasında hərbi sahədə möhkəm əməkdaşlıq əlaqələrinin olduğunu deyən Milli Müdafiə naziri Hulusi Akar vurğulayıb ki, qarşıdakı dövrdə bu əlaqələr müdafiə və təhlükəsizlik sahəsi ilə məhdudlaşmayaraq, digər sahələri də əhatə edəcək.

Göstərilən qonaqpərvərliyə görə Azərbaycan tərəfinə minnətdarlıq edən H.Akar bildirib ki, üç ölkənin birgə fəaliyyəti böyük önəm kəsb edir. Müdafiə sahəsində əməkdaşlığın genişləndirilməsinə dair imzalanan sənədlərin çox yaxında ölkələrimiz üçün faydalarını görəcəyik. Bu gün keçirilən görüşdə tərəflər mövcud işbirliyi və əməkdaşlıq potensialının perspektivlərini müzakirə etdilər. Türkiyə, Azərbaycan və Gürcüstanın birgə əməkdaşlığı çox önəmlidir.

Gürcüstanın Müdafiə naziri Levan İzoriya isə qeyd edib ki, Gürcüstan gələcəkdə Azərbaycanın və Türkiyənin keçirəcəyi birgə təlimlərə maksimum şəkildə qoşulacaq. Görüşdə regional təhlükəsizlik məsələlərini müzakirə etdiklərini vurğulayan L.İzoriya bildirib ki, bugünkü toplantı xalqlarımızın təhlükəsizliyi baxımından da önəmlidir.

# Qəbələdə Azərbaycan və Türkiyə müdafiə nazirlərinin görüşü keçirilib



İyunun 12-də Qəbələ şəhərində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akar ilə görüşüb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə müdafiə naziri general-polkovnik Z.Həsənov qonaqları salamlayaraq Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu, bu əlaqələrin gündən-günə inkişaf etdiyini və möhkəmləndiyini vurğulayıb. Dövlətlərimiz arasında əlaqələrin inkişafında ölkə rəhbərlərinin dostluq münasibətlərinin mühüm rol oynadığını deyən general-polkovnik Z.Həsənov bu cür görüşlərin əməkdaşlığımızın genişləndirilməsi baxımından zəruriliyini xüsusi qeyd edib.

Türkiyəli nazir də öz növbəsində, Azərbaycan-Türkiyə qarşılıqlı münasibətlərinin genişlənməsində bu cür görüşlərin vacibliyindən danışıb.

Görüşdə regional və qarşılıqlı əməkdaşlığa dair digər məsələlər barədə də ətraflı fikir mübadiləsi aparılıb.

# Naxçıvan şəhərində “Gənclər Yaşayış Kompleksi”nin təməli qoyulub







Ümummilli Liderimiz Heydər Əliyevin müəllifi olduğu inkişaf strategiyasında gənclərə qayğı əsas məsələlər sırasındadır. Bu gün ölkəmizdə, eləcə də muxtar respublikada sağlam gənc nəslin yetişdirilməsi ilə yanaşı, onların sosial-məişət şəraitinin yaxşılaşdırılması da diqqətdə saxlanılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyunun 12-də - Milli Qurtuluş Günü ərəfəsində Naxçıvan şəhərində yeni “Gənclər Yaşayış Kompleksi”nin təməlatması olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ümummilli Liderimiz Heydər Əliyevin “Azərbaycan gəncləri Azərbaycanın gələcəyidir”, fikrini xatırladaraq deyib: Bu gün ölkəmizdə Ulu Öndər Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsidir ki, gənclərimiz sabitlik şəraitində yaşayır, hərtərəfli təhsil alırlar. Muxtar respublikada da gənclər qayğı ilə əhatə olunub. Görülən işlərin davamı olaraq bu gün Naxçıvan şəhərində üçüncü gənclər şəhərciyi yaşayış kompleksinin təməli qoyulur. Gənclər üçün yeni yaşayış komplekslərinin tikilməsi həm onların mənzil problemlərinin həllinə, həm də ailələrin uzunömürlü olmasına xidmət edir. Çünki mənzil hər bir ailənin həyatında mühüm yer tutur. Bu gün muxtar respublikamızda 456 mindən artıq əhali yaşayır ki, onların da 140 mini və yaxud 30 faizdən çoxu gənclərdir. Ona görə də gənclərin mənzil şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilir.

Ali Məclisin Sədri deyib: 14-29 yaş arasındakı gənclərimizin təhsil alması və peşə öyrənməsi, mənzil şəraitlərinin yaxşılaşdırılması ölkəmizin gələcəyinə xidmət edən məsələdir. Dövlətin dəstəyi ilə Naxçıvan şəhərində yeni yaşayış kompleksinin salınmasında məqsəd də ondan ibarətdir ki, gənclərin mənzil problemi həll edilsin, onlar rahat yaşasınlar. Yaşayış kompleksinin tikilməsi həm də burada yeni iş yerlərinin açılması deməkdir. “Gənclər Yaşayış Kompleksi”nin tikilməsinə həm dövlət, həm də sahibkar tərəfindən vəsait sərf olunur. Ona görə də tikinti işləri keyfiyyətlə aparılmalı, gənclərimiz müasir mənzillərlə təmin olunmalıdırlar.

Ali Məclisin Sədri mənzillərin keyfiyyətlə tikilib başa çatdırılacağına əminliyini bildirib, inşaatçılara uğurlar arzulayıb.

“Cahan Holdinq” Şirkətlər İttifaqının direktoru Vüqar Abbasov “Gənclər Yaşayış Kompleksinin” layihəsi üzrə görüləcək işlər barədə Ali Məclisin Sədrinə məlumat verib. Bildirilib ki, ərazidə ikisi 7, ikisi 5 mərtəbəli olmaqla 4 yaşayış binası inşa olunacaqdır. Yeddimərtəbəli yaşayış binalarından biri 26, digəri 28, beşmərtəbəli yaşayış binalarının isə hər biri 40 mənzillidir. Ümumilikdə, 4 yaşayış binasında 134 mənzil istifadəyə veriləcəkdir. Binaların zirzəmisində xidmət sahələri yaradılacaq, həyətdə istirahət parkı istifadəyə veriləcəkdir.

Ali Məclisin Sədri kompleksdə gənclərin, eləcə də ailələrin tələbatına uyğun xidmət sahələrinin yaradılması, mənzillərin ipoteka yolu ilə satışa çıxarılması və gənclərin məlumatlandırılması barədə tapşırıqlar verib.

Sonra Ali Məclisin Sədri beton qarışığı bünövrəyə töküb, yaşayış kompleksinin təməli qoyulub.

# Müasir dövlət idarəçiliyinin təşkilati əsasları: 15 il innovativ inkişaf yollarında



Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA), Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə dövlət qulluqçuları və ASAN könüllüləri üçün növbəti səyyar seminar keçirilib.

AZƏRTAC xəbər verir ki, Şəki şəhərində keçirilən seminarda Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov “Dövlət idarəçiliyində innovativ texnologiyalar: Azərbaycanın təcrübəsi” mövzusunda məruzə ilə çıxış edib. Məruzədə bildirilib ki, Azərbaycan Respublikası müstəqilliyini 28 il öncə bərpa etməsinə baxmayaraq, qısa müddətdə inklüziv və davamlı inkişaf sahəsində yüksək uğurlara imza atıb. Bu uğurlar beynəlxalq qurumların və müstəqil ekspertlərin hesabatlarında öz əksini tapıb.

Məruzədə beynəlxalq təşkilatların 2018-2019-cu illərdə dərc edilən rəsmi statistik məlumatları təhlil olunub. Eyni zamanda, Dünya İqtisadi Forumunun təsisçisi və fəxri prezidenti Klaus Şvabın hazırladığı qlobal hesabat nəzərdən keçirilib. Bildirilib ki, həmin hesabatda Azərbaycan dünyanın ən səmərəli sosial siyasət həyata keçirən ölkəsi kimi xarakterizə olunub. Azərbaycan bu baxımdan iqtisadi göstəriciləri daha üstün ABŞ, Almaniya, Danimarka, Kanada, Fransa, Yaponiya kimi ölkələri geridə qoyub.

Qeyd edilib ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi innovativ idarəetmə texnologiyalarının nəzəri əsaslarının işlənilməsi, onların təcrübədə tətbiqi nəticəsində bir sıra iqtisadi və sosial göstəricilərinə görə müasir Azərbaycan Respublikası hazırda yüzillik tarixi olan və dünya liderləri sayılan ölkələrlə rəqabət aparmaq vəziyyətindədir.

Seminar iştirakçıları Azərbaycanda tətbiq edilən və dünya miqyasında ilk dəfə işlənilmiş sinergetik, komplimentar və kompensasion texnologiyaların mahiyyəti barədə məlumatlandırılıb. Sözügedən texnologiyaların işlənilməsi və həyata keçirilməsi prosesində ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xüsusi rolunun olduğu diqqətə çatdırılıb. Bildirilib ki, məhz dövlət başçısının tətbiq etdiyi idarəçilik texnologiyaları sayəsində Davos İqtisadi Forumunun 2018-ci ilin yanvarında dərc olunan hesabatında inklüziv inkişaf indeksinə görə Azərbaycan dünyada üçüncü yerdə qərarlaşaraq iqtisadi imkanları daha yüksək olan ölkələrin çoxunu geridə qoyub. Bu və bənzər təqdirəlayiq nəticələrin ölkənin səmərəli idarə olunması və iqtisadi imkanlardan maksimum istifadə edilməsindən xəbər verdiyi vurğulanıb.

Milli Məclisin deputatı, Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun direktoru, professor Elman Nəsirov “Dünyada və bölgədə yeni təhlükəsizlik mühitinin formalaşmasına Azərbaycan Respublikasının töhfəsi” mövzusunda məruzəsində qloballaşma dönəmində təhlükəsizlik anlayışının daha geniş məna kəsb etdiyinə diqqət çəkib. O, müstəqil dövlət olaraq hər bir ölkənin dünya birliyində tutduğu mövqe və qazandığı nüfuzun onun beynəlxalq, regional və milli səviyyələrdə reallaşdırdığı təhlükəsizlik siyasətinin çevikliyindən və səmərəliliyindən asılı olduğunu söyləyib. Eyni zamanda, məruzəçi ictimai rəyin getdikcə artan təsiri və dünya dövlətlərinin bir-birindən asılılığı şəraitində müdafiə obyektinin coğrafi genişlənməsi problemini dünya təhlükəsizliyi üçün önəmli fenomen kimi qabardıb. Vurğulanıb ki, hazırda müstəqil Azərbaycan özünün sülhpərvər mövqeyi, qonşu, region və bütövlükdə əməkdaşlığa meyilli olan bütün dövlətlərlə etibarlı əlaqələrinin səviyyəsi, həmçinin yüksək siyasi, iqtisadi, inkişaf potensialı ilə dünya dövlətləri arasında rəğbət və dəstək qazanmaqda davam edir, tərkib hissəsi olduğu regionun sabit inkişafı və təhlükəsizliyinin təminatında üzərinə düşən rolu uğurla yerinə yetirir.

E.Nəsirov Azərbaycanın Ermənistanın işğalçılıq siyasətinin qurbanı olmasına baxmayaraq, həm region ölkələri ilə, həm də dünya dövlətləri ilə praqmatik, ölçülüb-biçilmiş, düşünülmüş və balanslı siyasi strategiya əsasında münasibətlər qurması sayəsində güclü milli və regional faktora çevrildiyini, əksər geosiyasi aktorlarla qarşılıqlı faydalı əməkdaşlıq qurduğunu diqqətə çatdırıb.

“Dövlət qulluğunda innovasiyaların yeni mərhələsi” mövzusunda məruzə ilə çıxış edən Dövlət İdarəçilik Akademiyasının Elmi təşkilat və beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Rəcəb Rəhimli innovasiyaların dövlət sektorunda tətbiq olunmasının əsas məqsədləri və dövlət qulluğunda innovasiyaların tətbiqinin dövlət qulluğunun inkişafı strategiyası ilə bağlılığı haqqında məlumat verib. O, ölkədə dövlət qulluğu sistemində innovasiyaların tətbiqi zamanı səmərəli idarəetmə texnologiyalarının seçimi, dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi, dövlət qulluğunda səriştə modelinin tətbiq edilməsi ilə dəyişikliklərə təkan verən təşkilati mühitin yaradılması, potensial uğurlu layihələrin stimullaşdırılması, xərc və resursların həcminin düzgün müəyyənləşdirilməsi kimi önəmli amillərə xüsusi diqqət yetirildiyini vurğulayıb. Bu istiqamətdə reallaşdırılan məqsədyönlü siyasətin ölkənin ictimai-siyasi, iqtisadi, mənəvi-ideoloji və sosial həyatını kökündən dəyişdiyi, vətəndaş cəmiyyəti institutlarının inkişafına təkan verdiyi bildirilib. Eyni zamanda, diqqətə çatdırılıb ki, Azərbaycan Respublikasında dövlət orqanlarının fəaliyyətinin təşkilinə ən vacib konseptual innovativ yanaşma dövlət qulluğu sisteminin təkmilləşdirilməsinin bir çox istiqamətlərini özündə cəmləşdirən nəticəyönümlü idarəetmə prinsip və qaydalarının bu sahədə tətbiqidir. Məruzəçinin fikrincə, müasir dövrdə dövlət qulluğu və dövlət idarəçiliyində innovasiyaların başlıca istiqaməti əsasında səmərəliliyin keyfiyyət göstəriciləri dayanan idarəetmə fəaliyyətinin inkişafıdır. O, tətbiq edilən yeni innovativ yanaşma və təşəbbüslərin bu institutun nüfuzunun daha da artmasına imkan yaradacağını vurğulayıb.

Seminarın yekununda iştirakçıların sualları cavablandırılıb.

# Respublika Günü və Azərbaycanın diplomatik xidmətinin 100 illiyi Vaşinqtonda təntənəli şəkildə qeyd olunub







Vaşinqtondakı tarixi və mötəbər “Endryu Melon Auditorium”da 28 May - Respublika Günü və Azərbaycanın diplomatik xidmətinin 100 illiyi münasibətilə təntənəli ziyafət təşkil edilib. Təxminən min nəfərin qatıldığı ziyafətdə ABŞ Prezidenti Administrasiyasının, Dövlət Departamentinin və Pentaqonun rəsmiləri, generallar, Konqres üzvləri, digər dövlət qurumlarının nümayəndələri, habelə Vaşinqtondakı diplomatik korpusun, düşüncə mərkəzlərinin, müxtəlif ştatlardan ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə Türkiyənin Ədliyyə naziri Əbdülhamit Gül, habelə Azərbaycanla tərəfdaşlıq edən Oklahoma Milli Qvardiyasının nümayəndə heyəti də iştirak edib.

Tədbirin əvvəlində tanınmış müğənni Devid Difranko Azərbaycanın və ABŞ-ın dövlət himnlərini ifa edib.

Sonra səfir Elin Süleymanov çıxış edərək 2019-cu ildə müsəlman Şərqində ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyətinin 101-ci ildönümünün qeyd olunduğunu, Cümhuriyyətin qısa müddət yaşamasına baxmayaraq, Azərbaycan xalqı üçün zəngin irs və gələcəyə yönəlik arzular yaratdığını və bunun əsasında 1991-ci ildə Azərbaycan xalqının müstəqilliyini bərpa etdiyini vurğulayıb. Azərbaycan Prezidenti İlham Əliyevin fikrini diqqətə çatdıran diplomat bildirib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcıları yaşasaydı, bu gün Azərbaycanın nailiyyətləri ilə fəxr edərdilər.

Səfir, həmçinin Azərbaycan diplomatik xidmətinin 100-cü ildönümü ilə bağlı ölkəmizin bütün diplomatlarını təbrik edib, ölkəmizin Prezidentinin rəhbərliyi ilə diplomatik xidmətin Azərbaycanın güclənməsinə xidmət etdiyini vurğulayıb.

Səfir Azərbaycan-ABŞ tərəfdaşlığına toxunaraq ölkələrimiz arasında qarşılıqlı hörmət və maraqlara əsaslanan geniş əməkdaşlıq həyata keçirildiyini söyləyib. Ölkəmizin həyata keçirdiyi irimiqyaslı enerji layihələrinə ABŞ-ın dəstəyini xatırladan səfir ABŞ tərəfinə təşəkkürünü ifadə edib. Həmçinin E.Süleymanov Respublika Günü münasibətilə ABŞ prezidenti Donald Tramp və Dövlət katibi Mayk Pompeonun Azərbaycan Prezidenti və xalqına təbrikini xatırladıb.

Ziyafətdə əsas natiq qismində çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan Xalq Cümhuriyyətinin müsəlman Şərqində ilk respublika olduğunu, bu respublikanın irsi əsasında hazırda Azərbaycanın Prezident İlham Əliyevin liderliyi ilə dinamik inkişaf etdiyini vurğulayıb. O, Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarının Azərbaycanın bugünkü nailiyyətləri ilə fəxr edə biləcəyinə dair dövlətimizin başçısının fikrini səsləndirib. Hazırda Azərbaycanın ABŞ-ın etibarlı və strateji tərəfdaşı olduğunu qeyd edən Hikmət Hacıyev ölkəmizin əsgərlərinin beynəlxalq sülhə töhfə verdiklərini və amerikalı əsgərlərlə çiyin-çiyinə xidmət apardıqlarını vurğulayıb. Şöbə müdiri Azərbaycanın diplomatik xidmətinin 100 illiyi ilə bağlı da təbriklərini çatdırıb.

ABŞ müdafiə katibinin köməkçisinin müavini Laura Kuper çıxış edərək ölkəmizi Respublika Günü və diplomatik xidmətin 100 illiyi ilə bağlı təbrik edib. O, Azərbaycanın ABŞ-ın strateji tərəfdaşı olduğunu vurğulayaraq ölkəmizin Əfqanıstanda və terrorçuluğa qarşı mübarizə sahəsində göstərdiyi dəstəyin həm regional, həm də qlobal sülhə əhəmiyyətli töhfə olduğunu bildirib. L.Kuper ABŞ-ın Azərbaycanla strateji tərəfdaşlığını davam etdirmək əzmini ifadə edib.

Daha sonra çıxış edən ABŞ Dövlət katibinin köməkçisinin müavini Corc Kent 101 il bundan əvvəl Şərqin ilk respublikasının Azərbaycan xalqı tərəfindən yaradıldığını vurğulayıb, bu mütərəqqi dövlətin qadınlara seçki hüququ verdiyini xatırladıb. O, Respublika Günü və diplomatik xidmətin 100 illiyi münasibətilə Azərbaycanı təbrik edib. C.Kent ABŞ-ın Azərbaycanla strateji tərəfdaşlıq həyata keçirdiyini önə çəkərək ölkələrimiz arasında bir sıra sahələrdə aparılan əməkdaşlığı qeyd edib. O, ABŞ-la Azərbaycan arasında strateji tərəfdaşlığın gücləndirilməsi üçün ölkəsinin əzmini ifadə edib.

ABŞ milli qvardiyasının komandan müavini, üçulduzlu general Daniel Hokanson çıxış edərək Azərbaycanla tərəfdaşlığın vacibliyini qeyd edib, Pentaqon, o cümlədən Oklahoma Milli Qvardiyası ilə aparılan fəaliyyətə toxunub. Eyni zamanda, Oklahoma ştatının qubernatorunun 28 may tarixinin Oklahomada Azərbaycan Milli Günü elan edilməsi barədə bəyanatı səsləndirilib.

Tədbirdə ABŞ Konqresində Azərbaycanla dostluq qrupunun həmsədri Stiv Şabot çıxış edərək Azərbaycanı 28 May - Respublika Günü ilə bağlı təbrik edib və ölkəmizin əhəmiyyətli rolunu vurğulayıb.

Konqresmen Dunkan Hanter Azərbaycanın Əfqanıstanda bəzi NATO müttəfiqlərindən daha çox əsgərinin olduğunu vurğulayaraq, ölkəmizin ABŞ-ın etibarlı tərəfdaşı olduğunu vurğulayıb və buna görə də Azərbaycan dövlətinə təşəkkürünü ifadə edib.

ABŞ Dövlət Departamentinin antisemitizmə qarşı mübarizə üzrə xüsusi nümayəndəsi Elan Kar Azərbaycanda heç zaman antisemitizmin olmadığını bildirərək Birləşmiş Ştatların Azərbaycan kimi dövlətlə tərəfdaşlığından qürur duyduğunu və ölkəmizin nəinki regionda, hətta bütün dünyada nümunə rolunu oynadığını vurğulayıb.

Azərbaycan-ABŞ İqtisadi Tərəfdaşlıq Komissiyasının həmsədri, ABŞ Dövlət katibinin köməkçisi vəzifəsini icra edən Peter Has da Azərbaycan tərəfinə öz təbriklərini çatdırıb.

Daha sonra Vaşinqton şəhərinin aid olduğu Kolumbiya dairəsinin katibi Kimberli Basset 2019-ci il 28 may tarixinin ABŞ paytaxtında Azərbaycan Milli Günü elan edilməsi barədə mer Müryel Bouzer tərəfindən verilmiş bəyanatın mətnini oxuyub.

Tədbirdə qonaqlara Azərbaycanın milli mətbəxinin nümunələri təqdim edilib, eləcə də Azərbaycandan təşrif buyurmuş “Şur” musiqi qrupunun ifasında milli və dünya musiqi parçaları səsləndirilib.

# Jurnalistlər ADU-da qış imtahan sessiyasının gedişini izləyiblər



İyunun 12-də Azərbaycan Dillər Universitetində (ADU) 2018/2019-cu tədris ilinin yaz semestrinin yay imtahan sessiyasını müşahidə etmək məqsədi ilə mediatur təşkil olunub.

Əvvəlcə, Universitetin tədris işləri üzrə prorektoru, professor Əfqan Abdullayev mediatur iştirakçılarına imtahan prosesi barədə məlumat verib. O bildirib ki, 2018-2019-cu tədris ilinin yaz semestrinin imtahan sessiyasının müvafiq təlimatlara və əsasnamələrə uyğun keçirilməsini təmin etmək məqsədilə ADU-nun rektoru, akademik Kamal Abdulla tərəfindən müvafiq əmr imzalanıb. Əmrdə imtahan sessiyasının mövcud normativ sənədlərə uyğun təşkil olunaraq beynəlxalq təcrübəyə əsaslanması və otaqların imtahan başlanana qədər materialla təchiz edilməsi, sessiya dövründə fənn müəllimlərinin və imtahan nəzarətçilərinin müvafiq izahat işləri aparması nəzərdə tutulub. Tələbələrin müraciətləri əsasında imtahanların nəticələri üzrə apelyasiya ərizələrinə baxılması növbəti imtahana qədər təşkil ediləcək. Sessiyanın obyektiv və qaydalara uyğun keçirilməsinə kömək məqsədilə tələbə təşkilatlarının nümayəndələri, valideynlər imtahan prosesini müşahidə edəcəklər.

Media nümayəndələrinə o da bildirilib ki, sessiya müddətində imtahanların təşkilində və gedişində nöqsanlara və neqativ hallara yol vermiş şəxslər barədə qanunvericiliyə uyğun tədbirlər görmək məqsədilə İmtahan Qərargahı fəaliyyət göstərir.

Daha sonra mediatur iştirakçıları ADU-nun rektoru, Xalq yazıçısı, akademik Kamal Abdulla ilə görüşüblər. Rektor qonaqlara mediaturda iştirak etdiklərinə görə təşəkkürünü bildirib, media nümayəndələrinin imtahan prosesində iştirakının tələbələr üçün də yaddaqalan olacağına əminliyini ifadə edib. İmtahan sessiyasının təşkilində həyata keçirilən yeniliklərdən danışan universitet rəhbəri imtahanlara ayrılmış vaxtın 3 saata qədər artırılması, tələbələrin müraciətləri əsasında imtahanların nəticələri üzrə apelyasiya ərizələrinə baxılmasının növbəti imtahana qədər təşkil olunması, hər bir imtahan otağında tələbələrə yardım məqsədi ilə lüğət və proqramın qoyulduğunu diqqətə çatdırıb. Rektor əlavə edib ki, universitetin tələbə və müəllimləri Azərbaycanın müxtəlif rayon və şəhərlərində, qaçqın məktəblərində pedaqoji təcrübədə yaxından iştirak edirlər və bu, ənənə şəklini alıb. ADU-nun rəhbəri tələbələrin təcrübəsinin bundan sonra da uğurla davam edəcəyinə ümidvar olduğunu deyib.

Rektor daha sonra universitetin tədris prosesi və beynəlxalq əlaqələri, ali təhsil müəssisəsində fəaliyyət göstərən elmi-tədqiqat laboratoriyaları, tədris olunan dillər, həyata keçirilən layihələr barədə ətraflı məlumat verib. O, media mənsubları ilə universitet arasında əməkdaşlığın əhəmiyyətindən söz açıb, bu əlaqələrin davamlı olmasının vacibliyini vurğulayıb. Rektor KİV nümayəndələrini maraqlandıran sualları cavablandırıb.

Sonda müşahidəçilər universitetdə imtahanların yüksək səviyyədə təşkil olunduğunu, lazımi şərait yaradıldığını bildiriblər.

MÜŞFİQƏ

# YAP Gəncə şəhər təşkilatı Gənclər Birliyinin V konfransı keçirilib




Yeni Azərbaycan Partiyası (YAP) Gəncə şəhər təşkilatı Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirilib.

Konfransda Gəncə şəhər İcra Hakimiyyəti başçısının müavini Elnur Rzayev, YAP Gəncə şəhər təşkilatının sədri, millət vəkili Naqif Həmzəyev, millət vəkili Pərvin Kərimzadə, şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Müşfiq Cəfərov, partiya fəalları, gənclər və qonaqlar iştirak ediblər.



Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək abidənin önünə gül dəstələri düzüb, Ulu Öndərin xatirəsini ehtiramla yad ediblər.

Konfrans Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Konfransı giriş sözü ilə açan YAP Gəncə şəhər təşkilatının sədri, millət vəkili Naqif Həmzəyev Yeni Azərbaycan Partiyasının təkcə Azərbaycanın deyil, regionun ən nəhəng, aparıcı siyasi təşkilatı olduğunu diqqətə çatdırıb, partiyanın işində gənclərin rolundan danışıb. Dövlətin gənclərə qayğısından bəhs edən Naqif Həmzəyev bildirib ki, Ümummilli Lider Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə gənclərin himayədarı olaraq sağlam düşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab edib, onların dövlət mənafeləri əsasında səfərbər olunması üçün mühüm addımlar atıb. Millət vəkili Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan gənclər siyasətinin Prezidentimiz, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edib.

YAP Gəncə şəhər təşkilatı Gənclər Birliyinin konfranslararası müddətdə fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

YAP Gəncə şəhər təşkilatı Gənclər Birliyinin sədri Yüksəl Məmmədov çıxış edərək, hesabat dövrü ərzində görülən işlər, həyata keçirilən tədbirlər haqqında ətraflı məlumat verib, gənclərin partiyadakı rolundan, onların fəallığından danışıb. Məruzəçi qeyd edib ki, hazırda təşkilatın Gənclər Birliyi 23 866 nəfər gənci öz sıralarında birləşdirir. Gənc üzvlərdən 18 421 nəfəri, yəni 77,1 %-i qadınlar, 15 744 nəfəri, yəni 65,9% -i ali təhsilli gənclərdir.

Elnur Həsənov, Orxan Məmmədov, Valeh Əsədov və digərləri çıxış edərək görülən işlərə münasibət bildiriblər. Gənclər ölkəmizin inkişafı, respublikamızla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün səylə çalışdıqlarını söyləyiblər. Qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyevin qarşıya qoyduğu vəzifələri şərəflə yerinə yetirmək üçün gənclər bundan sonra da var qüvvələri ilə çalışacaqlar.

Konfransda Gəncə şəhər İcra Hakimiyyəti başçısının müavini Elnur Rzayev çıxış edərək hesabat konfransının əlamətdar günə - 15 İyun - Milli Qurtuluş Günü ərəfəsinə təsadüf etdiyini bildirib. Elnur Rzayev qeyd edib ki, müstəqilliyimizin ilk illərində yaranmış ağır vəziyyətdən dövlətimizi yalnız Heydər Əliyev kimi dahi bir şəxsiyyət qoruya bilərdi. Bu səbəbdən Ulu Öndər Heydər Əliyev xalqının səsinə səs verdi və yeni bir siyasi partiyanı - Yeni Azərbaycan Partiyasını yaratdı. Bu partiyanın təsis olunması, sonrakı illərdə xalqın yekdil səsi ilə hakimiyyətə gəlməsi nəticəsində Azərbaycan bölünmək təhlükəsindən xilas oldu, bugünkü inkişafın təməlləri qoyuldu. Hazırda müasir müstəqil Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edir, yeni-yeni uğurlara imza atır. Sevindirici haldır ki, Azərbaycan gəncliyi ölkəmizin inkişafı prosesində, uğurların qazanılmasında fəal iştirak edir. Elnur Rzayev Gəncə şəhərində quruculuq işlərində YAP-ın üzvü olan gənclərin müstəsna rolu olduğunu diqqətə çatdırıb.

Millət vəkili Pərvin Kərimzadə çıxış edərək gənclər siyasətinin düzgün həyata keçirilməsinin dövlətin cəmiyyətdəki dayaqlarını möhkəmləndirməklə yanaşı, onun həyata keçirməyə çalışdığı dövlət siyasətinin dəstəklənməsinə və müvəffəqiyyətlə həyata keçirilməsinə gətirib çıxardığını bildirib. Millət vəkili qeyd edib ki, məhz Ulu Öndərin qətiyyətli səyi ilə gənclərlə dialoq yaranıb, gənclərdə özünə inam artıb, onlar dövlətin ictimai-siyasi həyatında iştiraka cəlb olunmağa başlayıblar. Bu gün Azərbaycanda sağlam düşüncəyə, təfəkkürə, əqidəyə malik gənclərin formalaşması dövlətin gələcəyinin əsas təmini rolunda çıxış edir.

Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Müşfiq Cəfərov çıxış edərək Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan danışıb, bugünkü nailiyyətlərimizin və uğurlarımızın partiyamızın və onun Sədri, Prezident İlham Əliyevin gərgin əməyinin nəticəsi olduğunu diqqətə çatdırıb. Müşfiq Cəfərov ölkəmizin inkişafı prosesində gənclərin də yaxından iştirak etdiyini diqqətə çatdırıb.

Konfransda təşkilati məsələlərə baxılıb. YAP Gəncə şəhər təşkilatı Gənclər Birliyinin 49 nəfərdən ibarət Şura və 19 nəfərdən ibarət İdarə Heyətinin tərkibi müəyyənləşib.

Eyni zamanda, səsvermə nəticəsində Kamran Abbasov YAP Gəncə şəhər təşkilatı Gənclər Birliyinin sədri seçilib, həmçinin YAP Gənclər Birliyinin növbəti konfransına nümayəndələr də müəyyənləşdirilib.

# YAP Nərimanov rayon təşkilatı Gənclər Birliyinin üzvləri Milli Məclisdə olublar

15 İyun - Milli Qurtuluş Günü münasibətilə Yeni Azərbaycan Partiyası (YAP) Nərimanov rayon təşkilatı Gənclər Birliyinin üzvləri Milli Məclisdə olublar.



Əvvəlcə Milli Məclisin foyesində Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunaraq abidənin önünə gül dəstələri düzülüb.

Sonra Milli Məclisin Gənclər və idman komitəsinin üzvləri ilə YAP Nərimanov rayon təşkilatı Gənclər Birliyinin fəallarının görüşü




keçirilib. Gənclər həmçinin parlamentin iclas zalı ilə tanış olublar. Milli Məclisin Gənclər və idman komitəsinin sədri Ülvi Quliyev gəncləri salamlayıb, gənclərin 15 İyun - Milli Qurtuluş Günü ərəfəsində Azərbaycan parlamentinin fəaliyyəti ilə tanış olmalarının əhəmiyyətini vurğulayıb və parlamentin fəaliyyəti haqqında məlumat verib. O bildirib ki, parlamentin binası hələ sovetlər dönəmində Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilərək istifadəyə verilib. Azərbaycan parlamentinin keçdiyi yolun əhəmiyyətindən danışan Ü.Quliyev 1995-ci ildən indiyə kimi parlamentin 2000-dən çox qanun və qərar qəbul etdiyini gənclərin diqqətinə çatdırıb.



Daha sonra YAP Nərimanov rayon təşkilatı Gənclər Birliyinin üzvləri parlamentdə komitə iclaslarının keçirildiyi əsas zal ilə tanış olublar.

Sonra "Milli Qurtuluş Gününün gənclərə verdiyi töhfələr" mövzusunda "dəyirmi masa" keçirilib. Milli Məclisin Gənclər və idman komitəsinin sədri Ülvi Quliyev çıxış edərək 1993-cü ilin iyununda Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışının önəmindən, ölkənin vətəndaş müharibəsi və parçalanma təhlükəsindən xilas edilməsindən, vətəndaş cəmiyyətinin formalaşması istiqamətində həyata keçirilən uğurlu islahatlardan bəhs edib. Komitə sədri bildirib ki, 1993-cü ilin 15 iyunundan indiyə kimi Azərbaycanda gənclər sahəsində mühüm uğurlar əldə olunub. Bu uğurların əsas səbəbi dövlət gənclər siyasətinin təməlinin sağlam zəmində formalaşdırılması olub. Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu dövlət gənclər siyasəti bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Dövlətimizin başçısının bu sahəyə yüksək diqqət və qayğısı nəticəsində ölkəmizdə gənclərin inkişafı ilə bağlı mühüm Dövlət proqramları və strategiyaları qəbul olunub, Gənclər mərkəzləri, Gənclər evləri, Olimpiya İdman kompleksləri istifadəyə verilib.

Tədbirdə həmçinin Milli Məclisin Gənclər və idman komitəsinin üzvləri Şahin İsmayılov, Eldəniz Səlimov, Elşən Musayev və Cavid Osmanov Milli Qurtuluş Gününün Azərbaycan tarixindəki əhəmiyyətindən, Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın inkişaf və tərəqqisi yolundakı əvəzsiz xidmətlərindən danışıblar.

"Dəyirmi masa"da gənclər də çıxış ediblər, onları maraqlandıran suallar cavablandırılıb.

# Sədərək rayonunda Milli Qurtuluş Günü qeyd edilib




Dünən Yeni Azərbaycan Partiyası (YAP) Sədərək rayon təşkilatında 15 İyun - Milli Qurtuluş Günü münasibətilə "Tariximizin şanlı səhifələri" mövzusunda tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan YAP Sədərək rayon təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov deyib ki, hər bir xalqın tarixində milli qurtuluş və oyanış məqamları vardır. 1993-cü ilin 15 iyunu da belə tarixi anlardandır. Həmin gün Azərbaycan xalqı təhlükə qarşısında olan dövlətini xilas etmək üçün şərəfli həyatını bütünlüklə xalqının və dövlətinin inkişafına həsr edən Ümummilli Lider Heydər Əliyevə üz tutdu. Azərbaycanın taleyinin həll olunduğu ən ağır və faciəli günlərdə dahi rəhbərin xalqının israrlı tələbləri ilə yenidən hakimiyyətə qayıtması ölkəmizin tarixində, həqiqətən də, dönüş nöqtəsi oldu.

Arif Qasımov vurğulayıb ki, qədirbilən xalqımızın tarixi yaddaşına həkk olunmuş Milli Qurtuluş Günü ölkəmizin hər yerində Ümummilli Liderimiz Heydər Əliyevə dərin hörmət və məhəbbətlə, xalqa göstərdiyi təmənnasız, fədakar xidmətə verilən böyük qiymət və minnətdarlıq hissi ilə qeyd olunur.

Tədbirdə YAP Sədərək rayon təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Vüsalə Əliyeva, YAP Sədərək rayon təşkilatı Gənclər Birliyinin sədri Polad Rzazadə, YAP üzvləri Asya İmamverdiyeva və Elçin Nadirli çıxışlarında Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında əvəzsiz xidmətlərindən danışıblar.

Şagirdlər 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş şeirlər deyiblər. Tədbirdə yeni üzvlərə vəsiqələr təqdim olunub.

Tariximizin şanlı səhifələrindən bəhs edən film də göstərilib.

# Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatında toplantı keçirilib




Yeni Azərbaycan Partiyası (YAP) Qaradağ rayon təşkilatında rayon təşkilatı Şurasının üzvləri və ərazi ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə toplantı keçirilib. Tədbirdə Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədovun sədrliyi ilə cari ilin iyun ayının 8-də keçirilən Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatlarının ümumrespublika müşavirəsində qarşıya qoyulan vəzifələr və verilən tapşırıqların icrası ilə bağlı görüləcək işlər müzakirə olunub. Həmçinin rayon təşkilatının bu ilin ilk 5 ayında fəaliyyətinə dair hesabat dinlənilib.

Toplantıda çıxış edən YAP Qaradağ rayon təşkilatının sədri, Milli Məclisin deputatı Aydın Hüseynov sözügedən müşavirədə verilən tapşırıqları bir daha diqqətə çatdıraraq bu vəzifələrin icra olunmasında rayon təşkilatının hər bir üzvünün fəallıq göstərməsinin vacibliyini vurğulayıb. O, daha sonra ölkəmizdə həyata keçirilən uğurlu siyasət və onun nəticələri barədə danışıb. Bir neçə gündən sonra xalqımızın 15 İyun - Milli Qurtuluş Gününü qeyd edəcəyini xatırladan A.Hüseynov deyib ki, Azərbaycan dövlətinin xilası, xalqımızın müstəqillik arzularının həyata keçməsi məhz 15 iyundan başlayır: **"Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan xalqı böyük bəlalardan qurtuldu. Ulu Öndərin həyata keçirdiyi mühüm işlər nəticəsində Azərbaycan inkişaf yoluna qədəm qoydu və dünyada tanınmağa başladı. Əgər həmin ağır dövrdə Heydər Əliyev hakimiyyətə qayıtmasaydı, Azərbaycan xalqının başına dəhşətli faciələr gələcəkdi. O vaxt hakimiyyətdə olan AXC-"Müsavat" cütlüyünün səriştəsizliyi nəticəsində Azərbaycanın müstəqilliyi təhdid altında idi. Lakin Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində Azərbaycan üzləşdiyi böyük bəlalardan qurtuldu və dövlət quruculuğu istiqamətində əhəmiyyətli işlər həyata keçirilməyə başlandı. 1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri vəzifəsinə seçilməsi müasir tariximizdə dönüş nöqtəsi idi".**

A.Hüseynov bildirib ki, Ulu Öndərin hakimiyyətə qayıdışından sonra siyasi sabitlik bərpa olunmaqla yanaşı, ölkə iqtisadiyyatı da inkişaf yoluna qədəm qoydu. Həmin dövrdə Ulu Öndər Azərbaycanın inkişaf perspektivlərini çox dəqiq şəkildə müəyyənləşdirdi. Heydər Əliyev ölkəmizin gələcəyinin, dövlətimizin inkişafının məhz iqtisadiyyatın inkişafından asılı olduğunu önə çəkirdi. Heydər Əliyev iqtisadiyyatı çox dərindən təhlil etməyi, proqnozlaşdırmağı və bütün potensialları işə salmağı bacarırdı.

Milli Məclisin deputatı əlavə edib ki, Ümummilli Lider Heydər Əliyevin siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan dövlət başçısının yorulmaz və qətiyyətli fəaliyyəti nəticəsində dünyanın sayılıb-seçilən ən güclü və qüdrətli dövlətlərindən birinə çevrilib.

Yığıncaqda çıxış edən Şura və ərazi ilk partiya təşkilatları üzvləri rayon təşkilatının ötən dövrdəki fəaliyyətini yüksək qiymətləndiriblər. İlk partiya təşkilatlarının ötən dövrdəki fəaliyyətinə dair məlumatlar dinlənilib, mövcud çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq tapşırıq və tövsiyələr verilib.

# YAP Ağstafa rayon təşkilatında "Qurtuluş Günü - Müasir Azərbaycanın inkişafının başlanğıc tarixi" mövzusunda tədbir keçirilib

Dünən Yeni Azərbaycan Partiyası (YAP) Ağstafa rayon təşkilatı Gənclər Birliyinin və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş "Qurtuluş Günü - Müasir Azərbaycanın inkişafının başlanğıc tarixi" mövzusunda tədbir keçirilib.



Tədbirdə YAP Ağstafa rayon təşkilatı Gənclər Birliyinin sədri Elvin İmaməliyev, rayon Təhsil şöbəsinin baş məsləhətçisi Əli Cəfəroğlu, rayon Gənclər və İdman İdarəsinin baş məsləhətçisi Turan Hüseynov çıxış edərək Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xilaskarlıq missiyasından söz açıblar. Çıxış edənlər dövlətçilik tariximizə şərəfli və qürurverici səhifə kimi daxil olmuş 15 İyun - Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən danışıblar.

Bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıtması ilə Azərbaycan yeni bir mərhələyə daxil oldu. Ulu Öndər Heydər Əliyevin müdrik, uzaqgörən siyasəti nəticəsində ölkəmizdə mövcud olan gərgin ictimai-siyasi böhran aradan qaldırıldı, sabitlik və iqtisadi inkişaf təmin edildi. Böyük dövlət xadimi Heydər Əliyevin ictimai, siyasi, iqtisadi və mədəni həyatımızla bağlı ideyaları artıq Azərbaycanın gerçəkliyinə çevrilib. Ulu Öndərin müəyyən etdiyi müdrik siyasi kurs və strateji xətt Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, ölkəmiz sürətlə inkişaf edir.

# Türkmənistanda keçiriləcək I Xəzər İqtisadi Forumu ilə əlaqədar Bakıda dəyirmi masa təşkil edilib



Türkmənistanda keçiriləcək I Xəzər İqtisadi Forumu ilə əlaqədar iyunun 12-də Bakıda dəyirmi masa təşkil edilib.

AZƏRTAC xəbər verir ki, Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzinin (BMAM) və Türkmənistanın Azərbaycandakı səfirliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə deputatlar, Xəzəryanı ölkələrin səfirliklərinin əməkdaşları, ekspertlər, politoloqlar, tələbələr iştirak ediblər.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, BMAM-ın sədri Rufiz Qonaqov Xəzəryanı ölkələrin xalqları arasında dostluq və əməkdaşlıq platformalarının əhəmiyyətindən danışıb. O, Azərbaycanın Xəzəryanı ölkələrlə dostluq və mehriban qonşuluq münasibətlərinə, ikitərəfli və çoxtərəfli iqtisadi əməkdaşlıq perspektivlərinə diqqəti çəkib. BMAM-ın sədri Xəzərin hüquqi statusunun müəyyən edilməsindən sonra Xəzəryanı ölkə başçılarının iştirakı ilə bu il avqustun 12-də Türkmənistanda təşkil olunacaq I Xəzər İqtisadi Forumunun vacibliyindən söz açıb.

Türkmənistanın Azərbaycandakı səfiri Mekan İşankuliyev "Birinci Xəzər İqtisadi Forumu" mövzusunda çıxış edərək Xəzəryanı ölkələr arasında dostluq münasibətlərinin, xüsusilə də iqtisadi əməkdaşlığın əhəmiyyətindən bəhs edib. Səfir vurğulayıb ki, Xəzər dənizi Asiya və Avropa arasında tranzit rolunu oynayır. Xəzər dünya enerji xəritəsində böyük əhəmiyyətə malikdir. Bu coğrafiyada mühüm beynəlxalq layihələr reallaşdırılır.

Sonra Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev "Xəzər hövzəsi ölkələrinin beyin mərkəzlərinin əməkdaşlıq perspektivləri" mövzusunda çıxış edib. O, Xəzəryanı ölkələrin birgə səylərinin artırılmasında beyin mərkəzlərinin yaradılması ətrafında fəaliyyətin gücləndirilməsini təklif edib. Əlavə edib ki, iqtisadi təşəbbüslərin sistemli və səmərəli nəticələnməsində beyin mərkəzlərinin rolu vacibdir. Sədr, həmçinin Xəzər hövzəsi dövlətləri arasında siyasi əməkdaşlığın gücləndirilməsində beyin mərkəzlərinin üzərinə məsuliyyət düşdüyünü deyib.

Türkmənistanın Azərbaycandakı səfirliyinin birinci katibi Ovezgeldi Cumanazarov "Xəzərin tranzit və logistika potensialı" mövzusunda məruzə ilə çıxış edib. O deyib ki, müasir iqtisadi inkişaf dünya bazarına daha səmərəli çıxış yollarının axtarışını tələb edir. Bu baxımdan, Xəzəryanı ölkələr həm quru, həm də dəniz vasitəsilə geoiqtisadi baxımdan əlverişli imkanlarını möhkəmləndirməli və birgə səylərini daha da artırmalıdırlar.

Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu "Xəzər dənizi yeni enerji və nəqliyyat-kommunikasiya dəhlizi kimi" mövzusunda çıxış edərək Xəzərin nəqliyyat-kommunikasiya dəhlizi ətrafında real vəziyyətdən və Xəzəryanı dövlətlərin əməkdaşlıq perspektivlərindən, qarşılıqlı fayda gətirən iqtisadi əməkdaşlığın bütün region ölkələri üçün səmərəliliyinin artırılmasının əhəmiyyətindən bəhs edib. Deputat Xəzərin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş regional və qlobal əhəmiyyətli enerji layihələri ilə bağlı sabit inkişaf strategiyasını bu gün Prezident İlham Əliyevin uğurla davam etdirdiyini bildirib.

"Xəzər dənizində neft-qaz layihələri" mövzusunda çıxış edən "BP-Azərbaycan" şirkətinin vitse-prezidenti Bəxtiyar Aslanbəyli Xəzər hövzəsinin neft-qaz layihələrinin dünya miqyasında artan əhəmiyyətinə diqqət çəkib. O, Xəzəryanı ölkələrin qarşılıqlı fayda verəcək regional və qlobal əhəmiyyətli əməkdaşlığının gücləndirilməsindən bəhs edib. Xəzər regionunun neft-qaz layihələrinin XXI əsrdə ən iqtisadi səmərəli və strateji enerji layihələrindən olduğunu diqqətə çatdırıb.

AMEA-nın şöbə müdiri Rəna Mirzəzadə, ekspertlər Rəfail Becanov, Hüseyn İbrahimov, "Teleqraf" Media Qrupunun rəhbəri Aynur Camalqızı çıxış edərək bildiriblər ki, Xəzəryanı ölkələr elmi-innovativ və humanitar əməkdaşlığı da artırmalıdırlar. Belə əməkdaşlıq həm də regional iqtisadi və qlobal əhəmiyyətli layihələrə töhfə vermək üçün önəmlidir. Çıxışçılar enerji təhlükəsizliyinin davamlı təmin edilməsi istiqamətində hərtərəfli və çoxşaxəli əməkdaşlıq formalarının axtarışlarının daim gücləndirilməsinin vacibliyini vurğulayıblar.

Daha sonra Türkmənistan səfirliyinin Xəzər dənizinin turizm və iqtisadi potensialına dair hazırladığı videoçarx nümayiş olunub.

Tədbir müzakirələrlə davam edib.

# Ermənistan sülh danışıqlarının konstruktiv məcrada davam etdirilməsini istəmir

*İşğalçı ölkənin təxribat xarakterli addımlar atması bunu sübuta yetirir*



***Flora Qasımova:*** *Ermənistanın məqsədi danışıqlar prosesini pozmaqdır*



***Rauf Əliyev:*** *İşğalçı ölkə atəşkəs rejiminin qorunub saxlanmasını istəmədiyini nümayiş etdirir*

Azərbaycanın xarici siyasət kursunun ən mühüm strateji prioriteti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllidir. Ölkəmiz bu istiqamətdə qətiyyətli mövqe nümayiş etdirir. Azərbaycanın prinsipial mövqeyi ondan ibarətdir ki, Dağlıq Qarabağ münaqişəsi yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında öz həllini tapmalıdır. Xüsusi vurğulamaq gərəkdir ki, beynəlxalq müstəvidə Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları na əsasən həllinin zəruriliyi davamlı olaraq ifadə olunur. Bunu təmin edən faktor isə, qeyd etdiyimiz kimi, Azərbaycanın hücum diplomatiyası və qətiyyətli mövqeyi, prinsipial siyasətidir. Bir sözlə, münaqişənin həlli ilə bağlı Azərbaycanın ədalətli və haqlı mövqeyi dəstəklənir, bu mövqe ardıcıl olaraq daha da güclənir. Son zamanlar müxtəlif səviyyələrdə səsləndirilən bəyanatlar, qəbul edilmiş sənədlər də Azərbaycanın haqlı və ədalətli mövqeyinin dəstəklənməsinin əyani ifadəsidir.

Ermənistan isə qeyri-konstruktiv mövqeyini davam etdirməklə danışıqlar prosesini pozmağa hesablanmış addımlar atır. Yeri gəlmişkən, Dağlıq Qarabağdakı Ermənistan silahlı birləşmələrinin atəşkəs rejimini pozması nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin hərbçisi Elşən Xəlilovun həlak olması bu cür təxribat xarakterli addımlardan biridir.

Ekspertlər qeyd edirlər ki, belə təxribatçı addımlar Ermənistanın sülh danışıqlarının konstruktiv məcrada davam etdirilməsini istəmədiyini göstərir. Məsələyə münasibət bildirən Milli Məclisin deputatı Flora Qasımova deyib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında həll olunması strateji zərurətdir. Onun sözlərinə görə, münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır: **"Azərbaycan beynəlxalq hüquq normalarına əsaslanan prinsipial mövqe sərgiləyir, münaqişənin ölkəmizin ərazi bütövlüyü əsasında həll edilməsi istiqamətində çoxşaxəli fəaliyyətini davam etdirir. Ermənistan isə məhz qeyri-konstruktiv mövqe nümayiş etdirməklə danışıqlar prosesini pozmağa çalışır, beynəlxalq hüquq normalarına zidd hərəkətlərə yol verir. Ermənistan silahlı birləşmələrinin atəşkəs rejimini pozması nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin hərbçisi Elşən Xəlilovun həlak olması bilavasitə işğalçı ölkənin təxribat xarakterli addımları davam etdirməsinin göstəricisidir. Məqsəd, qeyd etdiyim kimi, danışıqlar prosesini pozmaqdır".**

Millət vəkili Flora Qasımova əlavə edib ki, Ermənistan öz yalanları ilə ATƏT-in Minsk qrupu həmsədrlərini, dünya ictimaiyyətini aldatmağa çalışsa da, bu niyyətinə nail ola bilmir: **"İşğalçı ölkənin müdafiə naziri David Tonoyan Azərbaycan hərbçisinin qətlə yetirilməsi ilə bağlı şəxsən göstəriş verdiyini təsdiq etməklə yanaşı, bu əməliyyatı icra edən erməni hərbçilərini yüksək mükafata təqdim edib. Baş nazir Nikol Paşinyan isə Sankt-Peterburqda forum zamanı işğalçı ölkənin rəhbərliyinin cəbhə xəttində təxribatlara hər hansı aidiyyətinin olması barədə sualı təkzib etdi. Görünən odur ki, ya baş nazir ölkəni idarə edə bilmir, ya da bütün bunlar yalandır və sülh danışıqlarının imitasiyasıdır".**

Milli Məclisin deputatı Rauf Əliyev isə deyib ki, Ermənistanın təxribat xarakterli addımlar atmaqla danışıqlar prosesini pozmağa çalışması yolverilməzdir: **"Cəbhənin Ağdam istiqamətində Azərbaycan Ordusunun zabiti, mayor Aqil Omarovun snayper tüfəngindən açılan atəşlə qətlə yetirilməsi, ondan bir neçə gün sonra isə işğal altında olan Dağlıq Qarabağdakı Ermənistan silahlı birləşmələrinin atəşkəs rejimini pozması nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin hərbçisi Elşən Xəlilovun həlak olması bu qəbildən olan təxribatlardır. İşğalçı ölkə bu cür təxribatçı addımlarla atəşkəs rejiminin qorunub saxlanmasını istəmədiyini nümayiş etdirir. Belə olan halda, beynəlxalq ictimaiyyət konkret mövqe ortaya qoyaraq işğalçı ölkəyə qarşı sərt reaksiya verməlidir. Yəni bu cür halların qarşısı alınmalı - təxribatçı hərəkətlərə son qoyulmalıdır".**

Millət vəkili Rauf Əliyev Ermənistanın işğalçı siyasətinin regional təhlükəsizliyə ciddi təhdidlər yaratdığını diqqətə çatdıraraq bildirib ki, Azərbaycan işğalçı ölkənin status-kvonu legitimləşdirmək cəhdlərinə heç vaxt imkan verməyəcək.

**Nurlan QƏLƏNDƏRLİ**

# Pərvin Kərimzadə: Milli Qurtuluş Günü Heydər Əliyevin dövlətçilik təcrübəsinin və siyasi iradəsinin təntənəsidir



Böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik 15 iyun - Milli Qurtuluş Günü Azərbaycanın siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı olub. 1991-ci ilin oktyabrında dövlət müstəqilliyini bərpa edən Azərbaycanda bir-birini əvəz edən səriştəsiz rəhbərlərin şəxsi maraqlarını dövlət mənafeyindən üstün tutmaları ölkədə xaosun yaranmasına, özbaşınalığın hökm sürməsinə, fəal vətəndaş qarşıdurmasına səbəb olmuşdu.

Bu fikirləri Milli Məclisin deputatı, Gəncə Dövlət Universitetinin Elm və innovasiyalar üzrə prorektoru Pərvin Kərimzadə AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində deyib.

Pərvin Kərimzadə bildirib ki, AXC-"Müsavat" hakimiyyətinin səriştəsizliyi, dövlət idarəçiliyi sisteminin olmaması, 1993-cü ilin əvvəllərindən ölkədə fəaliyyət göstərən silahlı dəstələrin yol verdikləri başıpozuq fəaliyyət, Azərbaycanın daxilində qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaranması, ayrı-ayrı bölgələrdə isə separatçılıq və parçalanma meyillərinin baş qaldırması Azərbaycanın bir dövlət kimi varlığına son qoyulması təhlükəsini yaratmışdı. Ölkədə səriştəsiz idarəetmə nəticəsində bütün sahələri böhran bürümüşdü. Bir sözlə, ölkənin taleyi, xaosdan xilası, nicatı mövcüzədən asılı vəziyyətdə qalmışdı. Belə bir vaxtda - 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı Azərbaycanı müstəqilliyini itirmək təhlükəsindən azad etdi, xalq öz nicatını görkəmli siyasətçinin hakimiyyətə qayıdışında tapdı. Ulu Öndərin Naxçıvandan Bakıya, böyük siyasətə qayıdışı şərəfli xilaskarlıq missiyasını yerinə yetirməsi parçalanmaq, dağılmaq təhlükəsi ilə qarşı-qarşıya duran Azərbaycanı xalqa qaytardı. Azərbaycanın inkişafı, müstəqilliyi və gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan, ona arxa və dayaq olan Ümummilli Lider Heydər Əliyevin uzaqgörən, praqmatik siyasəti nəticəsində ölkəmizin dövlətçilik tarixinin şanlı səhifəsi yazıldı.

Deputat qeyd edib ki, Ümummilli Liderin ölkə rəhbərliyinə tarixi qayıdışından sonra Azərbaycanda dövlət və cəmiyyət həyatının, sosial-siyasi vəziyyətin sabitləşdirilməsi, sağlamlaşdırılması prosesi başladı. Həmin qarışıq dövrdə dahi şəxsiyyət Heydər Əliyevin yüksək idarəçilik məharəti, siyasi uzaqgörənliyi və sarsılmaz qətiyyəti vətəndaş müharibəsinin qarşısını aldı. Xalq saysız-hesabsız problemlər məngənəsində sıxılan ölkəmizin ən ağır və həlledici dövründə onu qurtuluş yolu ilə aparmağa qadir olan yeganə şəxsiyyətin məhz Heydər Əliyev olduğuna bir daha əmin oldu. Heydər Əliyevin ikinci dəfə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində də dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başladı. Ölkədə ordu quruculuğu, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salındı.

Bunun da nəticəsində 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəs sazişi imzalandı. Bir sözlə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi ilə yanaşı, işğal edilmiş torpaqlarımızı azad etməyə və Azərbaycanın ərazi bütövlüyünü təmin etməyə qadir güclü nizami ordunun təməli qoyuldu. Ulu Öndərin gərgin əməyi nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ hüquqi baza yaradıldı.

Bu gün Ulu Öndərin memarı və qurucusu olduğu müstəqil Azərbaycan Respublikasının dövlət müstəqilliyinin etibarlı əllərdə olduğunu deyən Pərvin Kərimzadə vurğulayıb ki, dünya dövlətləri sırasında layiqli yer tutan Azərbaycanın Ulu Öndərimiz tərəfindən müəyyənləşdirilmiş inkişaf xəttini dövlət başçısı İlham Əliyev uğurla davam etdirir. 2003-cü ildən ötən dövrdə Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqeləri daha da möhkəmlənib, ölkəmizin dünya dövlətləri arasında nüfuzu artıb. Azərbaycanın sürətli inkişaf dövrü məhz Milli Qurtuluş Günü ilə başlayıb və bu gün Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir.

Ulu Öndər Heydər Əliyev ideyaları yaşayır dedikdə, bu gün Azərbaycanın inkişaf perspektivlərini, rifahını, əmin-amanlığını, sabitliyini, təhlükəsizliyini və eyni zamanda, Azərbaycanın xoşbəxt gələcəyini başa düşürük.

# Fransa məhkəməsindən ermənilərə növbəti zərbə

*Bu ölkənin Serji-Pontuaz məhkəməsinin Arnuvilin Azərbaycanın işğal olunmuş torpaqlarında yaradılmış separatçı rejim ilə "Dostluq haqqında xartiya"nı ləğv etməsinin ardınca Qrenobl inzibati məhkəməsi tərəfindən də bənzər qərar qəbul olunub*



Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən, praqmatik və milli maraqlara əsaslanan müstəqil xarici siyasət sayəsində Azərbaycan Respublikası müasir beynəlxalq münasibətlər sistemində mövqeyini davamlı olaraq möhkəmləndirir. Məlum olduğu kimi, Azərbaycanın xarici siyasət kursunun ən mühüm strateji prioriteti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllidir. Münaqişənin həllinə dair ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə sülh danışıqlarını davam etdirən ölkəmiz, eyni zamanda, bu prosesdə milli maraqlara əsaslanan qətiyyətli mövqe nümayiş etdirir. Bu mövqenin dəqiq konturları ondan ibarətdir ki, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında öz həllini tapmalıdır.

Təsadüfi deyil ki, bu qətiyyətli siyasət nəticəsində, habelə Azərbaycan və Fransa arasında beynəlxalq hüquq normalarına əsaslanan münasibətlərin məntiqi nəticəsi olaraq erməni separatçılarının təxribatçı fəaliyyətləri növbəti dəfə uğursuzluğa düçar olub. Belə ki, Fransadakı erməni internet resursu "armenews"un yaydığı məlumata görə, 11 iyun 2019-cu il tarixində Fransanın Qrenobl şəhərinin inzibati məhkəməsi Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ regionundakı separatçı, terrorçu rejimin nümayəndələri ilə Fransanın şəhər, kommuna və regionlarının rəhbərləri arasında imzalanan daha dörd "dostluq haqqında xartiya"nı ləğv edib.

Mütəxəssislərin fikrincə, Fransanın Qrenobl şəhərinin inzibati məhkəməsinin bu qərarını 29 may 2019-cu il tarixində bu ölkənin Serji-Pontuaz inzibati məhkəməsi tərəfindən qəbul edilmiş birinci qərarın məntiqi davamı kimi qiymətləndirmək olar. Belə ki, Serji-Pontuaz inzibati məhkəməsi Arnuvil şəhəri və Azərbaycan Respublikasının 1992-ci ildən bəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılan Dağlıq Qarabağ regionundakı yaşayış məntəqəsi arasında imzalanmış "dostluq xartiyası"nı qeyri-qanuni elan etmişdi. Xatırlatmaq lazımdır ki, həmin vaxt Fransa mətbuatında da məsələyə münasibət bildirilmiş və həmin qərar Azərbaycanın işğal edilmiş torpaqlarında formalaşdırılmış qondarma qurumla həmrəylik nümayiş etdirmək yolunu seçən bir sıra yerli hakimiyyət orqanları rəsmilərinin sonunu gətirəcək hüquqi presedent kimi qiymətləndirilmişdi.

Yeri gəlmişkən onu da qeyd edək ki, qeyri-qanuni yolla Dağlıq Qarabağa səfər etmiş və "sənəd" imzalayan Arnuvil bələdiyyə başçısı Paskal Dolla qarşı ittiham əsasında keçirilən məhkəmə zamanı şikayəti qəbul edən Val-d'Uaz Departamentinin Serji-Pontuaz inzibati məhkəməsi merin əleyhinə qərar qəbul etmişdi.

Onu da vurğulamaq yerinə düşər ki, Serji-Pontuaz inzibati məhkəməsi "Fransanın beynəlxalq öhdəliklərinə hörmət etmir" və "Dövlətin müstəsna səlahiyyəti olan Fransanın xarici siyasətinə qarşı çıxır" arqumentlərini rəhbər tutaraq sözügedən xartiyanı ləğv etmişdi. Qrenobl məhkəməsi tərəfindən qəbul edilən qərarın arqumentləri də, demək olar ki, eynidir.

Bununla yanaşı, 1993-cü il dekabrın 20-də Fransa ilə Azərbaycan arasında imzalanmış "Dostluq, anlaşma və əməkdaşlıq haqqında müqavilə"nin 2-ci maddəsində tərəflər beynəlxalq təhlükəsizliyin təmin edilməsi, münaqişələrin qarşısının alınması, dövlətlərarası münasibətlərdə beynəlxalq hüququn rəhbər tutulması, beynəlxalq səviyyədə tanınmış sərhədlərin pozulmaması prinsipinə hörmət edilməsi naminə səylərini birləşdirəcəklərinə dair üzərlərinə öhdəliklər götürüblər. Həmçinin Fransanın beynəlxalq öhdəliklərinə uyğun olaraq, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyinə və ərazi bütövlüyünə hörmətli təsdiq edən, Azərbaycanın işğal edilmiş bütün ərazilərindən Ermənistan silahlı qüvvələrinin dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb edən BMT TŞ tərəfindən 1993-cü ildə qəbul edilmiş qətnamələr rəsmi Paris tərəfindən dəstəklənib.

Beləliklə, ekspertlərin ümumi qənaətinə görə, ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olan Fransanın sözügedən öhdəliklərinə həmçinin Dağlıq Qarabağ münaqişəsinin ədalətli və sülh yolu ilə həllinin tapılmasını təşviq edir və "qanunsuz xartiyalar"ın ləğvinə dair Fransa hökumətinin beynəlxalq hüquq normalarına əsaslanan mövqeyi təkcə Azərbaycanda deyil, eləcə də Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyə təhdid olan münaqişənin ədalətli həllinə kömək edə bilər.

**Qaşqay ZİYƏDDİNOĞLU**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Şəhər və rayon mərkəzləri ilə yanaşı, kəndlərdə də əhalinin keyfiyyətli içməli su ilə təmin edilməsi istiqamətində işlər görülür

*Regionlarda əhalinin içməli suya olan tələbatının ödənilməsi, əkin və həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması üçün atılan addımlar davamlı xarakter daşıyır*









(əvvəli ötən sayımızda)

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən dövlət investisiya layihəsi çərçivəsində Şamaxı və Ağsu rayonlarının 5 kəndində içməli su layihələrinin icrasına başlanılıb. Səhmdar Cəmiyyətin İctimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Şamaxı rayonunda icra olunan layihə Bağırlı, Ovçulu və Çöl Göylər, Ağsu rayonundakı layihə isə Qəşəd və Ləngəbiz kəndlərini əhatə edir. Bu kəndlərdə içməli su şəbəkəsi mövcud olmayıb və əhali suya olan tələbatını uzaq məsafələrdən daşıyaraq ödəyir. Xüsusilə yay aylarında kəndlərin su təminatında çətinliklər yaranır.

Kəndləri içməli su ilə təmin etmək üçün mənbə olaraq Oğuz-Qəbələ-Bakı su kəməri seçilib. Su kəmərindən götürülən suyun kəndlərə nəqli məqsədilə ümumi uzunluğu 9,5 kilometr olan magistral su xəttinin inşası nəzərdə tutulur. Magistral su kəməri üzərində 6 vantuz və 3 təzyiq artırıcı quraşdırılacaq. Bağırlı, Ovçulu, Çöl Göylər və Qəşəd kəndlərində hər birinin tutumu 50 kubmetr olan su anbarları tikiləcək, Ləngəbiz kəndindəki mövcud su anbarı isə əsaslı təmir olunacaq. Şamaxı və Ağsu rayonlarının kəndlərində ümumi uzunluğu 40,3 kilometr olan su xətləri çəkiləcək, əhalinin ümumi istifadəsi üçün 258 bulaq quraşdırılacaq.

İndiyədək Şamaxı və Ağsu rayonlarının kəndlərində 10 kilometr su xəttinin tikintisi yekunlaşıb. Hazırda anbarların və su xətlərinin tikintisi davam etdirilir. Yaxın vaxtlarda bulaqların quraşdırılmasına başlanılacaq. Tikinti-quraşdırma işlərinin yay aylarında başa çatdırılması nəzərdə tutulur.

Layihənin icrası tam başa çatdıqdan sonra Şamaxı rayonunun Bağırlı, Ovçulu və Çöl Göylər, Ağsu rayonunun Qəşəd və Ləngəbiz kəndlərinin 6 mindən çox sakini keyfiyyətli içməli su ilə təmin ediləcək.

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən icra olunan növbəti layihə çərçivəsində isə Qobustan rayonunun 3 kəndində mərkəzləşdirilmiş su təchizatı sistemi yaradılır. ASC-nin İctimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Qobustan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi çərçivəsində Qobustan şəhərini və ətraf kəndləri içməli su ilə təmin etmək üçün rayonun Təsi kəndinin yaxınlığında 6 subartezian quyusu qazılıb, su mənbəyindən şəhərə 14,4 kilometr magistral su xətti çəkilib. Eyni zamanda, kəmərin marşrutu boyunca yerləşən Təsi və Bədəlli kəndlərində nasos stansiyası quraşdırılıb, Daşarası və Nərimankənd kəndlərində ümumi tutumu 2000 kubmetr olan 2 su anbarı inşa edilib. Yaradılmış yeni infrastrukturun imkanlarından istifadə etməklə 2012-ci ildə Ərəbqədim, Cəmcəmli və Göydərə kəndlərini su ilə təmin etmək üçün magistral xətlər çəkilib, kəndlərdə əhalinin ümumi istifadəsi üçün bulaq və su dayağı quraşdırılaraq sakinlərin suya olan tələbatı qismən ödənilib. Növbəti mərhələdə bu kəndlərdə mərkəzləşdirilmiş su təchizatı sistemlərinin yaradılmasına qərar verilib. Bu məqsədlə Ərəbqədim, Cəmcəmli və Göydərə kəndlərində ümumi uzunluğu 17 kilometr olan paylayıcı su şəbəkəsi inşa edilir. Hazırda su xətlərinin tikintisi yekunlaşmaq üzrədir. Yeni yaradılan şəbəkədən hər bir evə birləşmə verilərək sayğaclar quraşdırılacaq. Kəndlərdə su təchizatının dayanıqlılığını təmin etmək məqsədilə hər birinin tutumu 50 kubmetr olan 2 su anbarı tikilir.

Tikinti-quraşdırma işlərinin yaxın vaxtlarda başa çatdırılması nəzərdə tutulur. Bununla da, Qobustan rayonunun Ərəbqədim, Cəmcəmli və Göydərə kəndlərinin 4 minədək sakini fasiləsiz və keyfiyyətli içməli su ilə təmin olunacaq.

Xatırladaq ki, Prezident İlham Əliyevin "Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" sərəncamları və investisiya layihələri çərçivəsində son 2 ildə 46 rayonun 211 kəndində 330 min sakinin keyfiyyətli içməli suya çıxışı təmin edilib. Bu kəndlərdə su təchizatı ümumi istifadə əsasında bulaqlar vasitəsilə aparıldığından əhalidən ödəniş tələb olunmur. Ümumilikdə son illər Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, Bakı şəhəri və regionlarda icra edilən içməli su layihələri dövlət başçısının əhalinin sosial rifahının daha da yaxşılaşdırılmasına göstərdiyi diqqətinin bariz nümunəsidir.

Şamaxı şəhərinin sabit və etibarlı su təchizatı üçün yeni mənbənin yaradılmasına başlanılıb.

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin İctimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, dövlət büdcəsi hesabına icra olunan layihə çərçivəsində Ağsuçayın məcrasında 1734 metr uzunluğunda drenaj tipli suqəbuledici qurğu inşa edilir. Yeni yaradılan mənbədən şəhərə saniyədə 80-100 litr suyun verilməsi nəzərdə tutulur. Su mənbəyində hər birinin tutumu 500 kubmetr olan 2 ədəd su anbarı, 1 ədəd su nasos stansiyası inşa edilib. Yeni su mənbəyindən Şamaxı şəhərinə içməli suyun verilməsi məqsədilə 19 kilometrlik magistral su kəməri tikilib. Şəhərin dayanıqlı su təminatı məqsədilə ümumi tutumu 5000 kubmetr olan 4 yeni su anbarı da inşa olunub. Hazırda sugötürücü qurğuda tikinti işləri davam etdirilir. Mənbə istismara verildikdən sonra magistral kəmərlə Şamaxı şəhərinə içməli suyun verilməsinə başlanılacaq. Bununla da kəskin istilərin müşahidə olunduğu dövrlərdə şəhərin içməli su təminatında dayanıqlıq təmin olunacaq.

Qeyd edək ki, iqlim dəyişmələri və quraqlığın bəzi su mənbələrinin məhsuldarlığına təsiri nəzərə alınaraq digər bölgələrdə də yeni layihələr həyata keçirilir. Prezident İlham Əliyevin sərəncamlarına əsasən, ötən il Tovuz, Lerik və Gədəbəy şəhərləri üçün alternativ mənbələrin yaradılması layihələri icra olunub. Eyni zamanda, Ağstafa və Qobustanda yeni sutəmizləyici qurğular istismara verilib. Ümumilikdə son 10 ildə icra olunmuş layihələr çərçivəsində Bakı şəhəri və regionlarda ümumi məhsuldarlığı saniyədə 18,5 kubmetr olan 39 yeni su mənbəyi yaradılıb və bu sahədə işlər davam etdirilir.

Hazırda Azərbaycanda geniş suvarma sistemlərinə, kollektor-drenaj şəbəkələrinə malik meliorasiya və su təsərrüfatı kompleksi fəaliyyət göstərir. Bu sahədə Ağsu rayonunda da ardıcıl layihələr həyata keçirilir. Bu məqamlar Ağsu suvarma sistemləri idarəsinin və sukanal sahəsinin kollektivlərinin peşə bayramları - 5 iyun Su Təsərrüfatı və Meliorasiya İşçiləri Günü münasibətilə keçirilən tədbirdə qeyd olunub.

Bayram tədbirinin iştirakçıları əvvəlcə Heydər parkına gələrək Ümummilli Liderin abidəsi önünə çiçəklər düzüb, xatirəsini ehtiramla yad ediblər. Heydər Əliyev Mərkəzində keçirilən yığıncaqda çıxış edənlər meliorasiya və su təsərrüfatının inkişafında Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin böyük xidmətlərini diqqətə çatdırıblar. O da qeyd olunub ki, rayonda ümumi uzunluğu 967,4 kilometr olan su kanalları var ki, bunun da 148 kilometri baş kanallardır. Yuxarı Şirvan kanalı və onun Ağsu qolu, Cavanşir ehtiyat su mənbəyi, Ələbbas, Ömərlahıc və digər kanallar bölgədə 37 min 71 hektar suvarılan sahəni əhatə edir. Hazırda planlaşdırılmaqda olan Qazan arxının çəkilməsi ilə 7 kəndin su təchizatı yaxşılaşdırılacaq.

Rayon əhalisinin içməli su ilə təminatını yaxşılaşdırmaq istiqamətində də ardıcıl layihələr həyata keçirilir. Yenidən qurulan su-kanalizasiya xətti 5685 abonentə xidmət göstərir. Artıq 38 kənd yaşayış məntəqəsi bulaqlarla təmin olunub. Ölkə başçısının tapşırığı ilə 2 kəndə su kəməri çəkilir. Bu kəndlərdə 78 bulaq tikiləcək.

Məlum olduğu kimi, kənd təsərrüfatı məhsullarının istehsalında yüksək nəticənin əldə olunmasında əsas şərtlərdən biri də əkin sahələrinin suvarma suyu ilə təminatıdır. Bu sahəni daim diqqətdə saxlayan dövlətimizin başçısının "Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" Sərəncamına əsasən, Samux rayonunda 66 ədəd subartezian quyusunun qazılıb istifadəyə verilməsi nəzərdə tutulub.

Bu vaxta qədər rayon üzrə 56 subartezian quyusu qazılaraq istifadəyə verilib. Hazırda daha 10 subartezian quyusunun qazılması üçün hazırlıq işləri görülür.

Yeri gəlmişkən, ölkənin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da suvarma mövsümünün mütəşəkkil keçirilməsi diqqətdə saxlanılır. Hazırda su anbarlarında 235 milyon kubmetr su ehtiyatı var. Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsindən bildirilib ki, aprel ayında su istifadəçilərinə 44 milyon kubmetr su verilib, təkrar suvarma da daxil olmaqla, 37 min hektar torpaq sahəsi suvarılıb. Bu dövrdə 43 kilometr beton və torpaq kanal, 29 kilometr ara arxlar, 4 kilometr kollektor lildən təmizlənib, 11 kilometr yeni suvarma boru xətti çəkilib, 5 kilometr suvarma boru xətti və 6 kilometr içməli su xətti təmir edilib. Yaşayış məntəqələrini və əkin sahələrini daşqın və sel sularından qorumaq məqsədilə Naxçıvançay, Cəhriçay vadilərində 710 metr istiqamətləndirici bənd tikilib.

Muxtar respublikanın Kəngərli rayonunun Yurdçu kəndi ərazisində 76 hektar, Şahbuz rayonunun Türkeş kəndi ərazisində 300 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisinə başlanılıb, Yurdçu kəndi ərazisində 2520 metr, Türkeş kəndi ərazisində isə 3240 metr yeni suvarma xətti quraşdırılıb. Həmçinin Şərur və Babək rayonlarında 72 hektar sahədə qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınıb. Ötən ay muxtar respublikada 69 subartezian quyusu təmir olunub, 5 kəhrizdə bərpa işləri davam etdirilib.

Şərur rayonunun Zeyvə və Düdəngə kəndlərində içməli su şəbəkəsinin tikintisi davam etdirilib, müxtəlif diametrli borularla 9525 metr yeni xətt çəkilib.

**Nadir AZƏRİ**

# Misirdə İmadəddin Nəsiminin Azərbaycan dilində əlyazması tapılıb




"Vətənpərvər" - Azərbaycanın Misirdə Diaspor Təşkilatları Birliyinin sədri, tədqiqatçı-alim Seymur Nəsirov Azərbaycanın dahi şairi və mütəfəkkiri İmadəddin Nəsiminin əlyazmalarını ortaya çıxarıb.

Birlikdən APA-ya verilən məlumatda bildirilir ki, S.Nəsirov dahi şairin əlyazmalarını onunla bağlı apardığı tədqiqatlar əsnasında, Misirin paytaxtı Qahirədə yerləşən "Misir Kitablar Evi"ndə ("Dər əl-Kutub əl-Misriyyə") aşkarlayıb.

Tədqiqatçı əlyazmaların Azərbaycan və fars dillərində olduğunu bildirib.

Azərbaycan dilində olan əlyazmanın üzərində Nəsimi Külliyatı yazılıb. Bu külliyat şeir və nəsrdən ibarətdir. Şeirlərin çoxu rubai və məsnəvi üslubunda yazılıb. Arasında qəzəl də var. Nəsrlər isə əsasən öyüd-nəsihət və Peyğəmbərin əhli beytindən bəhs edir.

S.Nəsirovun ən çox diqqətini çəkən isə ərəb əlifbasının sırasına uyğun olaraq, sonu eyni hərflə bitən ayrı-ayrı şeirlərin olması olub. Əlyazma 254 vərəqdən ibarətdir. Kiçik hərflərlə nəstəliq xətti ilə yazılıb. Hicri tarixi ilə 941-ci ildə (miladi 1535-ci il), Pir Əhməd İskəndər oğlu tərəfindən nəqş olunub.

Fars dilində olan əlyazma isə nisbətən kiçik həcmdədir və sadəcə şeirlərdən ibarətdir. Adı "Divan Nəsimi"dir. Şikəstə xəttinə bənzəyən nəstəliq xətti ilə yazılıb. Əlyazmanın vərəqlərinin eni 11 sm, uzunluğu 16 sm, sayı səksən altıdır.

Birlikdən o da bildirilib ki, S.Nəsirov 20 ildən çoxdur, ərəb mənbələrində Azərbaycanla bağlı tədqiqatlar aparır, 250-dən çox azərbaycanlı alim haqqında iki kitabın, Misirlə Azərbaycan arasında tarixi və mədəni əlaqələrlə bağlı onlarla məqalənin müəllifidir.

Qeyd edək ki, "Misir Kitablar Evi" "(Dər əl-Kutub əl-Misriyyə") dünyanın ən məşhur kitabxanalarından biridir.

# "Əl-Arabiyya" televiziya kanalı Azərbaycanla bağlı reportajlarını davam etdirir







Ərəb dünyasının məşhur "Əl-Arabiyya" televiziya kanalı Azərbaycanla bağlı reportajlarını davam etdirir.

AZƏRTAC xəbər verir ki, budəfəki reportaj "Qala" Dövlət Tarix Etnoqrafiya Qoruğu, "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu, "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğuna həsr olunub.

Qeyd edilir ki, "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ziyarətçiləri qədim adət-ənənələrlə, digər etnoqrafik materiallarla tanış olur, bu qədim diyarın tarixinə qısa ekskursiya edirlər. Qoruq ərazisində yaşı 300-ü keçən ağaclar, eləcə də digər maddi mədəniyyət nümunələri, müdafiə-istehkam qalası da mövcuddur.

Reportaj "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunun eksponatlarına da yer ayırıb. Qeyd edilir ki, Atəşgah məbədi Bakı şəhərindən şərqdə yerləşən, müxtəlif dövrlərdə zərdüştilər, hinduslar və siqhlər tərəfindən ibadətgah kimi istifadə edilmiş alov məbədidir. Bu məbəd XVII-XVIII əsrlərdə təbii qaz çıxışı olan sönməz alovların yerində inşa edilib. Bakıya gəlmiş Aleksandr Düma, Dmitri Mendeleyev və digər məşhur alim və səyahətçilər bu məkana baş çəkiblər.

Həmçinin reportajda nadir təbiət hadisəsi olan Yanardağdan da danışılır. Qeyd edilir ki, min illər ərzində sönmədən yanan bu dağ haqqında müxtəlif əsatirlər, əfsanələr gəzib dolaşır.

# Muxtar respublikaya yeni teplovoz gətirilib

Naxçıvan dəmir yolunda lokomotivlərə olan tələbat nəzərə alınaraq "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanovun tapşırığına əsasən "ÇME 3" seriyalı 6069 saylı yeni manevr teplovozu "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinə verilib.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, Naxçıvan Muxtar Respublikası işğalçı ölkə tərəfindən blokadaya salındığı üçün ölkəmizlə qədim diyarın birbaşa dəmir yolu əlaqəsi olmadığına görə daşımalar əsasən avtomobil nəqliyyatı vasitəsilə həyata keçirilir. Yüklərin muxtar respublikaya çatdırılmasında Gürcüstan və Türkiyə üzərindən keçən avtomobil yolundan da geniş istifadə olunur. Yeni teplovoz da xüsusi avtoqoşqular vasitəsilə Gürcüstan və Türkiyə üzərindən keçməklə iyunun 12-də muxtar respublikaya gətirilib.

Teplovozdan dəmir yolunda manevr işlərinin aparılmasında, qatarların təhlükəsiz və maneəsiz hərəkətinin təmin olunmasında, sərnişinlərin vaxtında mənzil başına çatdırılmasında, həmçinin Ordubad-Culfa istiqamətində hərəkət edən yük-sərnişin qatarlarında dartı vasitəsi kimi istifadə olunacaqdır.



Qeyd edək ki, "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti üçün müasir iş şəraiti yaradılıb, vağzal binaları, stansiyaların idarəetmə mərkəzləri, inzibati və yardımçı binalar əsaslı təmir olunub. Yeni avadanlıqların, maşın və mexanizmlərin, vaqonların alınıb gətirilməsi, yolların əsaslı təmiri və yenidən qurulması yük və sərnişindaşımalarının etibarlılığını təmin edib.

Muxtar respublikada dəmir yol-nəqliyyat kompleksinin yenilənməsi, bu sahənin texniki bazasının gücləndirilməsi istiqamətində görülən işlər 2019-cu ildə də davam etdirilir. Yeni teplovozun muxtar respublikaya gətirilməsi də görülən işlərin davamıdır.

# Bakcell gənclərin karyera və məşğulluq imkanlarını artırır

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti Təhsil Nazirliyi və Gənclər və İdman Nazirliyinin dəstəyi, UNEC-in təşkilatçılığı ilə "Gənclər üçün Əmək Yarmarkası - 2019" tədbirinə qatılıb.



Çoxsaylı tələbə, magistr və məzunların, dövlət qurumları, yerli və xarici şirkətlərin iştirak etdiyi əmək yarmarkasının əsas məqsədi Azərbaycan gənclərinin məşğulluğunun təmin edilməsinə dəstək göstərməkdir.

Əmək yarmarkası zamanı gənclərə Bakcell şirkətində mövcud olan vakansiya və təcrübə imkanları barədə ətraflı məlumat verilib və potensial namizədlərlə müsahibələr keçirilib.

Ölkənin qeyri-neft sektorunun ən iri investorlarından olan Bakcell şirkəti gənclərin təhsilinin və karyerasının inkişafına mütəmadi olaraq dəstək göstərir. Şirkət mütəmadi olaraq müxtəlif təhsil müəssisələri, dövlət qurumları və digər təşkilatlar tərəfindən təşkil olunan karyera sərgilərində fəal iştirak edir. Müsahibədən uğurla keçən gənclər ölkənin ən böyük və ən innovativ şirkətlərindən birində iş və ya təcrübə imkanı qazanır.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4820
"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC", "Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
**Buraxılışa məsul:**
Zahid İLHAMOĞLU